


## Şuşada komitələrin növbəti iclası bu tarixdə keçiriləcək

*Milli Məclisin İnsan hüquqları komitəsi ilə İctimai birliklər və dini qurumlar komitəsi Şuşada birgə iclas keçirəcək. “Unikal” xəbər verir ki, birgə iclasın aprelin 27-də keçirilməsi nəzərdə tutulur. İclasın gündəliyi haqqında yaxın günlərdə ictimaiyyətə məlumat veriləcək.*

Səh.3


# UNİKAL

№13 (2098) 15 aprel 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Elman Rüstəmovun Mərkəzi Bankdan göndərilməsinin sirri...

### Sabiq baş bankir niyə vaxtından əvvəl öz postunu itirdi?

*Yola salmaq üzrə olduğumuz həftənin ən diqqət çəkən hadisələrindən biri, heç şübhəsiz ki, Azərbaycan Mərkəzi Bankının (AMB) rəhbərliyindəki dəyişiklik oldu. Belə ki, Milli Məclisdə ”Elman Rüstəmovun Mərkəzi Bankın İdarə Heyətinin üzvlüyündən azad edilməsi haqqında” təqdimat və ”Taleh Kazımovun Mərkəzi Bankın İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında” təqdimat müzakirə edildi. Deputatlar hər iki təqdimatı müsbət qarşıladılar. Bundan sonra isə ölkə başçısı T.Kazımovun ölkənin baş bankının rəhbəri təyin edilməsi ilə bağlı sərəncam imzaladı.*

*Xatırladaq ki, 2 il öncə düz 27 ildir AMB sədri olan Elman Rüstəmovun Mərkəzi Bank rəhbərliyinə namizədliyi Prezident tərəfindən növbəti dəfə irəli sürülmüşdü və gözləmək olardı ki, o, 2025-ci ilə qədər postunda qalacaq. Lakin, göründüyü kimi, bu, baş vermədi.*

Səh.8

Səh.9



## Ermənistan Azərbaycan qarşısında məğlubiyyətini qəbul edir

## “Süni qiymət artımına nəzarət tədbirləri daha da gücləndirilməlidir”



*Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü Cavid Osmanov ”Unikal”a müsahibə verib. O, 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə səslənən fikirlər, ölkənin sosial-iqtisadi durumu, gözləntilər barədə fikirlərini bölüşüb.*

Səh.4

## Elsevər Ağayev apteklərini itirir



*Səhiyyə nazirinin sabiq müavini Elsevər Ağayevin nəzarətindəki apteklər kurasiyasından çıxmağa başlayıb. Belə ki, eks-müavinə birbaşa və ya dolayı yolla bağlı olan apteklərdən bəziləri artıq ona bağlı deyil. Bu barədə qəzetimizə səhiyyə sahəsindəki qaynaqlardan məlumat verilib.*

Səh.6

## Təhsildə gender bərabərliyi pozulur



*Orta məktəblərdə qızların təhsildən yayınması ən çox müzakirə olunan məsələlərdəndir. Təhsildə gender problemi aktual olaraq qalır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-2021-ci ildə dövlət ümumtəhsil məktəblərində təhsil alan qızların bütün siniflərdə ümumi sayı 762 429 olub.*

Səh.11

# Günay İbrahimova ilə Cavanşir Məmmədov arasında qalmaqal



***Əməkdar artist Cavanşir Məmmədov müğənni Günay İbrahimlininin "Ana Kürüm" mahnısını ifa etməsini tənqid edib.***

"Unikal" xəbər verir ki, bu barədə o, "Tarixin bir günü" verilişində danışıb. O bildirib ki, mahnının Aşıq Pənah Pənahov tərəfindən yazılmasına baxmayaraq, bəstə ingilis stilində oxunub:

"Ana Kürüm"ü oxuyublar, Aşıq Pənahdan orada nə bir saz səsi var, nə də başqa bir şey. Bir dənə mahnının sözləridir. Bunu ingilis mahnısı ediblər. Günay İbrahimli oxuyub. Mahnının əvvəlində balaban var. Aşıq Pənah balaban ifaçısı olmayıb. Qızı, oğlu zəng etmişdi ki, atamın mahnısını niyə bu günə qoyublar? Orada bir saz səsi gəlsə, nə olardı? Bu, bizim folklorumuzdur. Əgər aranjimançı ingilis stilində aranjiman edirsə, bir dənə başqa "Ana Kürüm" yazsın. Oradan saz səsi gəlməlidir. Bir həmkarımız vardı, onu müdafiə etdi, bu mahnıya xeyir-dua verdi. Orada xeyir vermək olar, amma dua yox. Çünki Aşıq Pənahın ruhu inciyər".

# Efirə zəng edən tamaşaçı: "Nazilə Səfərli işlədiyim xəstəxanada xadimə idi"



***Aparıcı və prodüser Tarix Əliyevin (Tolik) verilişinin ötən gün yayımlanan buraxılışında maraqlı anlar yaşanıb.***

"Unikal" baku.ws-ə istinadən xəbər verir ki, proqram zamanı tamaşaçılardan biri efirə zəng edərək şairə Nazilə Səfərli ilə bağlı iddia irəli sürüb. Adının İradə olduğunu deyən qadın Səfərlinin onun çalışdığı xəstəxanada 10 il əvvəl xadimə işlədiyini deyib. Sözügedən şəxs Fatimə ilə Nazilə arasındakı qalmaqala görə şairəni qınayıb: "Hamının keçmişi, bu günü və gələcəyi var. Məsələn, tanıdığım adam var, keçmişdə fəhlə işləyib, indi vəzifədədir. İnsan gərək keçmişini yadından çıxartmasın. Mən özüm mama-ginekoloqam. 23 il Respublika Perinatal Mərkəzdə işləmişəm. Nazilə xanım da bizim xəstəxanada xadimə işləyib. Daha sonra qəfildən işdən ayrıldı. Mən onun ayrılma səbəblərini deməyəcəm, o onun öz işidir. İndi şairədir, öz yolunu tapıb, müəyyən qazancı var. Mənim məqsədim heç kimi alçaltmaq deyil. Amma insanları təhqir etmək haqsızlıqdır. Fatimə xanım da uzun əziyyətlərdən sonra bu yerə gəlib çıxıb".

Qeyd edək ki, bir müddət əvvəl rəqqasə Fatimə Fətəliyeva ilə şairə Nazilə Səfərli arasında qalmaqal yaşanıb. Sonda hər iki məşhur bir-birini məhkəmə ilə hədələyib.



# "Canana bunu qəsdən etdi ki..." - Rəqqasə Fatimə

***Xəbər verdiyimiz kimi, Əməkdar artist Mətanət İsgəndərlinin keçmiş gəlini Cananı rəqqasə Fatimə Fətəliyevanın doğum günü məclisindən qovdurmasının görüntüləri yayılıb.***

"Unikal" xəbər verir ki, rəqqasə həmin hadisə ilə bağlı açıqlama yayıb.

Fatimə Cananı bunu qəsdən və reklam üçün etdiyini bildirib: "Ya Mətanət xanım, ya da ki, Canana oradan getməli idi. Mətanət xanıma böyük bir bacı kimi münasibət bəsləyirəmsə, necə ola bilər ki, Canana mənim ad günümdə iştirak etsin? O an Cananın yanına yaxınlaşdım, soruşdum ki, sizi bura mən dəvət etmişəm? Gülə-gülə biz çəkiliş heyətiylə gəlmişik cavabını verdi. Sual verdim ki, müxbirsən, yoxsa aparıcısan, çəkiliş heyətiylə mənim ad günümdə nə gəzirsən? Canana bunu qəsdən etdi ki, reklam olunsun, haqqında danışılsın və insanların ona yazığı gəlsin. Onu da deyim ki, çox şeyləri bilmirsiniz. Xanım o fikirlə gəlmişdi ki, özünə reklam qazansın və onu da bacardı. Halal olsun".

Qeyd edək ki, Canana M.İsgəndərlinin oğlu Kərimlə ötən il rəsmi boşanıb.

# Roza Zərgərli məşhur cərraha səsləndi: "10 min manatı hazırla"



***Müğənni Roza Zərgərli yeni açıqlaması ilə diqqət çəkib. Sənətçi plastik-cərrah Elnur Mehrəlini məhkəməyə verəcək. Buna səbəb həkimin Zərgərlinin bədənində dolğu olduğunu iddia etməsidir.***

Bundan hiddətlənən Roza "Tam vaxtıdır" proqramında cərrahın iddialarına cavab verib. İfaçı onun klinikasına müayinəyə gələcəyini, bədənində dolğu tapılmadığı təqdirdə ondan 10 min manat alacağını deyib.

Cərrah bu pulu ödəməsə ifaçı onu məhkəməyə verəcək.

Qeyd edək ki, rejissor Nail Naiboğlunun yutub layihəsinə qonaq olan plastik-cərrah Elnur Mehrəli Zərgərlinin bədənində plastik əməliyyatla dolğu edildiyi fikrini təsdiqləyib.

# Mətanət nədən əməliyyat olunub?

***Müğənni Mətanət Əsədovanın nə üçün əməliyyat olunduğu bəlli olub.***

"Unikal" olay-a istinadən xəbər verir ki, sənətçi ağciyərində yaranan problemi aradan qaldırmaq üçün bıçaq altına yatıb. O, hazırda paytaxtdakı məşhur klinikalardan birində müalicə alır.

Qeyd edək ki, ifaçının əməliyyatı və vəziyyətinin ağır olması ilə bağlı ilk xəbəri lent.az yayıb.





# Milli Məclisin iclasının gündəliyi dəyişdi

***Milli Məclisin bugünkü iclasının gündəliyinə dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, gündəlikdəki məsələlərin sayı 13-dən 14-ə çatdırılıb. Müzakirəyə çıxarılacaq məsələlər aşağıdakılardır:

1. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

2. "Beynəlxalq Telekommunikasiya İttifaqının Radiorabitə Reqlamentinin və Ümumdünya Radiorabitə Konfransının Yekun Aktlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi.

3. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Antiinhisar fəaliyyəti haqqında", "Yeyinti məhsulları haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

# Elman Rüstəmovun Mərkəzi Bankdan göndərilməsinin sirri...

## Sabiq baş bankir niyə vaxtından əvvəl öz postunu itirdi?

***Yola salmaq üzrə olduğumuz həftənin ən diqqət çəkən hadisələrindən biri, heç şübhəsiz ki, Azərbaycan Mərkəzi Bankının (AMB) rəhbərliyindəki dəyişiklik oldu. Belə ki, Milli Məclisdə "Elman Rüstəmovun Mərkəzi Bankın İdarə Heyətinin üzvlüyündən azad edilməsi haqqında" təqdimat və "Taleh Kazımovun Mərkəzi Bankın İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında" təqdimat müzakirə edildi. Deputatlar hər iki təqdimatı müsbət qarşıladılar. Bundan sonra isə ölkə başçısı T.Kazımovun ölkənin baş bankının rəhbəri təyin edilməsi ilə bağlı sərəncam imzaladı.***

Xatırladaq ki, 2 il öncə düz 27 ildir AMB sədri olan Elman Rüstəmovun Mərkəzi Bank rəhbərliyinə namizədliyi Prezident tərəfindən növbəti dəfə irəli sürülmüşdü və gözləmək olardı ki, o, 2025-ci ilə qədər postunda qalacaq. Lakin, göründüyü kimi, bu, baş vermədi.

Əslində E.Rüstəmovun öz postunu itirməsi təəccüblü deyildi. Son vaxtlar həm onun, həm də ümumilikdə Mərkəzi Bankın fəaliyyəti ilə bağlı tənqidi fikirlər intensivləşmişdi. Bu mənada Rüstəmovun əvəzlənməsini "sürpriz" adlandırmaq çətindir.



Lakin hər bir halda sabiq baş bankir barədə qərar maraq doğurmaya bilməz. Belə bir qərarın verilməsinə nə səbəb olub? Bu suala cavab olaraq müxtəlif versiyalar səsləndirilir.Onlardan hansının doğru olduğunu demək çətindir. Ancaq bir məqamın Mərkəzi Bank rəhbərliyində edilən dəyişiklikdə həlledici rol oynadığı ehtimalı yüksəkdir.

Hələ bu ilin əvvəlində, daha dəqiq desək, yanvarın 12-də dövlət rəhbəri yerli televiziya kanallarına müsahibəsində bir neçə il əvvəlki devalvasiya qərarı ilə bağlı da danışmışdı: "Bildiyiniz kimi, bir neçə il bundan əvvəl biz çox ağır bir addımın atılmasına məcbur idik. Manatın qiymətdən düşməsi insanların rifah halına mənfi təsir göstərmişdi" deyən ölkə başçısı əlavə edib: "Amma o addımı biz mütləq atmalı idik. Çünki əgər biz bu addımı atmasaydıq, biz bütün valyuta ehtiyatlarımızı xərcləyə bilərdik. Onsuz da bu addımın gecikməsi ona gətirib çıxardı ki, Mərkəzi Bankın valyuta ehtiyatları böyük dərəcədə tükənmişdi. Haradasa 10 milyard dollar. Təxminən 10 milyard dollar vəsait manatın sabit saxlanmasına istifadə edilmişdir. Nəticə etibarilə manatı Mərkəzi Bank sabit saxlaya bilmədi və 10 milyard dollar valyutanı biz itirdik".

Xatırladaq ki, 2015-ci il fevralın 21-də Mərkəzi Bank milli valyutanın devalvasiyasını həyata keçirərək 1 Azərbaycan manatının rəsmi məzənnəsinin 1.05 ABŞ dollarına bərabər olduğunu elan etdi. Həmin il dekabrın 21-də isə 2-ci devalvasiya oldu və 1 ABŞ dollarının rəsmi məzənnəsi 1,55 manat səviyyəsində qərarlaşdı.

Maraqlıdır ki, hər iki devalvasiya qərarından bir neçə gün öncə Mərkəzi Bank rəhbəri Elman Rüstəmov manatın ucuzlaşdırılmayacağını bildirmişdi. Lakin hər dəfə də devalvasiya qaçılmaza çevrilmişdi.

Bəs bu devalvasiyalara səbəb nə idi? Məsələ orasındadır ki, ixracatımızın böyük hissəsini neft və neft məhsulları təşkil edirdi. Neftin dünya bazarlarında kəskin ucuzlaşması (120 USD-dən 25 USD yə qədər) və bu ucuzlaşma fonunda ölkəyə daxil olan xarici valyuta kütləsinin kəskin azalması isə devalvasiyaya gətirib çıxardı. Yəni Mərkəzi Bankın valyuta ehtiyatlarının sürətlə əriməsinin qarşısını atmaq üçün manatı ucuzlaşdırmaqdan başqa yol qalmadı.

Dövlət rəhbərinin yerli telekanallara müsahibəsi zamanı söylədiklərindən isə bir daha aydın oldu ki, sözügedən proses 10 milyard dollar valyutanın itirilməsi ilə nəticələnib.

Eyni zamanda görünən odur ki, Elman Rüstəmov və onun rəhbərlik etdiyi Mərkəzi Bank zamanında doğru qərarlar verməyə yubanıb. Həmin qərarlar vaxtında verilsəydi, itirdiyimiz valyutanın həcmi də bu qədər böyük olmazdı.

Bir qədər də dəqiqləşdirək: 2014-cü ilin sosial-iqtisadi yekunları, qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə çıxışı zamanı E.Rüstəmov ölkədə makroiqtisadi sabitliyin tam qorunduğunu fəxarətlə qeyd etmişdi. Sonra isə əlavə etmişdi: "2014-cü ildə qonşu ölkələrdə, bölgədə gedən mürəkkəb proseslərlə bağlı yaranmış psixoloji təzyiqlərə baxmayaraq, vaxtında görülmüş tədbirlər nəticəsində manatın məzənnəsi sabit saxlanılmışdır. Bunun üçün Mərkəzi Bank valyuta bazarının həm nağd, həm də qeyri-nağd seqmentlərində çevik tənzimləmə tədbirləri görmüşdür".

E.Rüstəmovun haqqında bəhs etdiyi "çevik tənzimləmə tədbirlərinin" nədən ibarət olduğunu bilmirik. Bircə o məlumdur ki, sözügedən "tədbirlər"in "nəticəsi" sabiq "baş bankirin" elə həmin çıxışındaca dediyi "Manatın sabitliyinin təmini bizim ən öndə olan məqsədlərimizdən biridir və biz bu məqsədin reallaşmasını təmin edəcəyik" sözlərinin üzərindən cəmi 40 gün keçdikdən sonra - 2015-ci il fevralın 21-də ortaya çıxdı: Mərkəzi Bank manatın məzənnəsini kəskin şəkildə aşağı saldı, ilin sonunda yenidən eyni addımı atdı.

Beləliklə, aydın oldu ki, ölkənin maliyyə-bank sektoruna faktiki rəhbərlik edən, uzun illər boyu pul-kredit siyasətinin müəyyənləşməsində həlledici söz sahibi olan bir şəxs, necə deyərlər, burnunun ucundan uzağı görə bilməyib. Ya da görüb, lakin susmağa üstünlük verib.

Nəticədə isə Azərbaycan 10 milyard dollar valyuta itirdi!

Sual edilə bilər: bəs niyə bundan 7 il sonra E.Rüstəmov vəzifəsindən uzaqlaşdırıldı?

Sadə səbəbdən: sabiq "baş bankir" bu müddətdə yeni devalvasiya olmayacağına cəmiyyəti inandıra bilmədi. Hətta bu gün neftin yüksək qiyməti fonunda mütəmadi olaraq manatın ucuzlaşa biləcəyinə dair iddialar səslənir, aparıcı xarici valyutaların bahalaşıb-bahalaşmayacağına dair müzakirələr açılır. Deməli, Mərkəzi Bankın keçmiş rəhbəri ictimai rəydə milli valyutamıza etimadı yarada bilməyib.

O da maraqlıdır ki, Rüstəmovun xələfi - hazırda 39 yaşda olan Taleh Kazımov PAŞA Banka rəhbərlik etdiyi dövrdə onu 4 dəfəyə yaxın böyüdüb, onun aktivlərini və kredit portfelini 4 dəfəyə yaxın artırıb. Bank zərərdən mənfəətə keçib, cəmi gəlirləri 3 dəfə yüksəlib. Lakin daha maraqlısı odur ki, indiyədək Taleh Kazımovun devalvasiya tərəfdarı olmadığı müşahidə edilib, o, iqtisadiyyatda, valyuta bazarında sabitliyin vacibliyini vurğulayıb.

Belə ki, Mərkəzi Bankın yeni rəhbəri 2020-ci ildə keçirilmiş bir konfransda, "Azərbaycanın böyük məbləğdə valyuta ehtiyatları mövcuddur. Eyni zamanda dövlət qurumlarının həyata keçirdiyi tədbirlər nəticəsində iqtisadi sabitliyin qorunacağına inanırıq. Biz valyuta bazarında stabillik müşahidə edirik və mən əminəm ki, dövlət tərəfindən iqtisadiyyatın sabitliyini qorumaq üçün addımlar atılacaq. İndiki vəziyyətə biz devalvasiya olacağına inanmırıq. Dövlət tərəfindən addımlar atılır və gördüyümüz kimi bu addımlar uğurludur", - demişdi.

Fikrimizcə, T.Kazımovun bu baxışları da Rüstəmovun əvəzlənməsi ilə bağlı üzərində dayandığımız ehtimalı qüvvətləndirir.

***Toğrul Əliyev***

# Ermənistan Azərbaycan qarşısında məğlubiyyətini qəbul edir

## Paşinyan anlayır ki, Qarabağda separatçıların fəlaiyyəti və onları müdafiə etməsi Ermənistanı çıxılmaz vəziyyətdə saxlayır

***Brüssel görüşündən sonra Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması üçün proses sürətlənməkdədir. Prosesin Azərbacanın istədiyi istiqamətdə inkişafı göz önündədir. Prezident İlham Əliyev sonuncu müşavirədə də Azərbaycanın prinsipial mövqeyindən geri çəkilmədiyini bəyan etməklə bunu bir daha sübut etdi.***

Ölkə başçısı onu da bildirib ki, münaqişə artıq həll olunub. Onun sözlərinə görə, Avropa İttifaqı Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması ilə məşğuldur və son aprel görüşündə bu məsələlər müzakirə edilib: " Azərbaycan iki ölkə arasındakı əlaqələri normallaşdırmaq üçün 5 prinsipdən ibarət təklif vermişdir və Ermənistan tərəfi də bu təklifə müsbət yanaşmışdır və Brüssel görüşünə qədər artıq bu açıqlamalar verilmişdir. Brüssel görüşündə isə mən bunu özüm üçün, sadəcə olaraq, daha da yəni, aydınlaşdırmaq istəyirdim və aydınlaşdırdım ki, Ermənistan 5 prinsipi qəbul edir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü qəbul edilir və Ermənistan Azərbaycana qarşı ərazi iddiasından əl çəkir. Yəni, əgər bu 5 prinsipi qəbul edirsə, - bu, aprel görüşündə təsdiqləndi, - bu məsələlər bu 5 prinsipin tərkib hissəsidir. Bu, çox müsbət haldır və hesab edirəm ki, ikitərəfli əlaqələrin normallaşdırılması üçün əsas şərtdir. Razılaşdırıldı ki, həm sərhədlə, həm də sülh müqaviləsinin hazırlanması ilə bağlı işçi qrupları yaradılsın".

Ermənistanın baş naziri Nikol Paşinyan da parlamentdəki son çıxışında Azərbaycanla Ermənistan arasında tezliklə sülh sazişi bağlanmalı olduğunu bəyan edib. O bildirib ki, aprelin 30-dək Bakı ilə İrəvan arasında Birgə Sərhəd Komissiyasının üzvləri təyin edilməlidir. "Bu, bir neçə ayın məsələsi deyil. Amma hər 2 ölkə sərhədlərin delimitasiya və demarkasiyası prosesinin mümkün qədər tez olmasında maraqlıdır. Hələlik konkret vaxtdan danışmaq tezdir. Proses başlayanda bir çox məqamlar daha aydın olacaq", - Baş nazir əlavə edib. N.Paşinyan vurğulayıb ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Hökumət başçısı həmçinin Azərbaycanla danışıqlar üzrə strategiyasını açıqlayıb: "Bizim strategiyamız sərhəd məsələsində Azərbaycanın rəsmi mövqeyini öyrənmək və Ermənistanın həmin məsələ ilə bağlı rəsmi mövqeyini müəyyənləşdirməkdir. Mövqeyimizdə mümkün qədər legitim olmaq üçün sərhədləri dəqiqləşdirərkən yalnız hüquqi əsası olan faktlardan və arqumentlərdən istifadə edəcəyik. Beynəlxalq ictimaiyyətin bu legitimliyi tanıması və Azərbaycanla razılığın əldə edilməsi bizim strategiyamızdır".

Ermənistanın baş naziri Nikol Paşinyan dünən növbəti dəfə diqqət çəkən açıqlama verib. O, Qarabağ məsələsi ilə bağlı danışarkən "erməni xalqını qurbanlıq qoyun statusundan çıxarmaq lazımdır" ifadəsini işlədib. "Bu gün bizə deyirlər ki, Qarabağı təslim etmişik(Azərbaycan ərazi bütövlüyünü bərpa etməsi-red.). Əgər Qarabağı təslim etmək istəsək, Serj Sarkisyanın danışıqlarının məntiqini davam etdirərdik. Beləliklə də, Qarabağı verərdik", - Paşinyan deyib.

Əgər başqa yolla getsək biz Qarabağı itirəcəyik. Fərrux hadisələri sizə örnəkdir. Bir-birinizi aldatmağa son qoyun. Biz yolları ona görə açırıq ki, ifadəyə görə üzr istəyirəm, xalqımızı qurbanlıq qoyun statusundan çıxaraq... Müharibənin olub-olmayacağına biz qərar vermədik. Biz heç nəyə qərar vermədik. Mən bu gün deyirəm ki, Ermənistan suveren ölkədir və biz nəyisə həll etmək hüququnu özümüzə qaytarmalıyıq. Çünki biz dövlətik, at tövləsi deyilik. Biz vətəndaşıq, qurbanlıq quzu deyilik ki, müxtəlif yerlərdə bizi nə qədər və necə kəsəcəyinə və ya bizi bağışlayacağına qərar versinlər, - baş nazir deyib. Baş nazir gələcək nəsillərin bu statusda qalmasına imkan verməyəcəyini bəyan edib.

Məsələylə bağlı fikirlərini "Unikal"la bölüşən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirib ki, Baş nazir Nikol Paşinyan reallıqları anlamaq üçün məğlub olmalıydı. Onun sözlərinə görə, Paşinyanın parlamentdəki son çıxışı Ermənistan ictimaiyyətinə, radikal müxalifətə və dünyadakı erməni lobbisinə mövcud reallıqları anlatmaq məqsədi daşıyırdı:

"Birincisi, Paşinyan dedi ki, beynəlxalq ictimaiyyət Ermənistanı Qarabağın statusu məsələsində "plankanı aşağı endirməyə" çağırır. Paşinyan bunu deyərkən Türkiyənin adını tələffüz etməyi də unutmayıb: "Bu gün bizə beynəlxalq ictimaiyyət açıq deyir ki, Türkiyənin müttəfiqi olan Azərbaycanın ərazi bütövlüyünü tanımayan dünyada yeganə ölkə olmaq - tək Artsax üçün deyil, həm də Ermənistan üçün böyük təhlükədir. Beynəlxalq birlik deyir ki, bizə ümid bəsləməyin - ona görə yox ki, sizə kömək etmək istəmirik, ona görə ki, kömək edə bilmərik".

Paşinyan demək istəyib ki, "Azərbaycana qarşı ərazi iddialarını davam etdirsək, qarşımızda yenə Azərbaycan-Türkiyə ittifaqını görəcəyik və bu ermənilərə növbəti dəfə baha başa gələcək". Bu halda Rusiya və bu ölkənin Ermənistana havayı verdiyi silah da erməniləri xilas edən deyil.

İkincisi, Paşinyanın sözlərinə görə, Qarabağ ermənilərinin təhlükəsizliyinin təminatı "statusdan" daha vacibdir və bunu ona Brüsseldə bir daha anladıblar: "Bu mövqeyimiz son Brüssel görüşündə təsbit olunub. Əgər əvvəllər təmələ biz Qarabağın statusunu qoyurduq və bundan təhlükəsizlik və haqlar qarantiyaları irəli gəlirdi, indi təmələ təhlükəsizlik və haqlar qarantiyaları qoyuruq və bundan status məsələsi irəli gəlir".

Beləliklə, Paşinyan radikallardan və Qarabağdakı separatçılardan fərqli olaraq "yalnız müstəqillik" ifadəsini işlətməkdən imtina edib. Çünki anlayır ki, əks halda Azərbaycanla münasibətlər yenidən gərginləşəcək və növbəti müharibə qaçılmaz olacaq. Bununla Paşinyan Qarabağı Azərbaycan ərazisi kimi tanımağa hazır olduğunun mesajını verib.

Üçüncüsü, Paşinyan parlamentdəki çıxışında etirafını da səsləndirib: "Günahkaram ki, xalqımıza deməmişəm ki, beynəlxalq birlik birmənalı Azərbaycanın ərazi bütövlüyünü tanıyır, bizdən də tanıyacağımızı umur, onu da gözləyir ki, Qarabağdan çıxmış azərbaycanlılar da Dağlıq Qarabağın gələcəyinin müəyyən edilməsi və idarəçiliyi məsələlərinə cəlb olunsunlar".

Paşinyan ermənilərə bu reallığı da anlatmağa çalışıb ki, Qarabağ erməniləri Azərbaycanın tərkibində bölgəyə qayıdacaq azərbaycanlılarla birgə yaşayışa hazır olmalıdırlar.

Dördüncüsü, Paşinyan başqa bir etirafını da səsləndirib: "7 rayonu Azərbaycana təhvil versəydim müharibə olmazdı və minlərlə həyatı xilas etmiş olardım. Təhvil verməyərək isə faktiki olaraq minlərlə qurbana səbəb olan qərarların müəllifi oldum".

Əlbəttə, Paşinyanın dediyi kimi o münaqişənin həlliylə bağlı "mərhələli həll" planına razılaşsaydı, müharibə olmazdı və sülh sazişi imzalanardı. Ancaq nəinki Paşinyan heç bir erməni siyasətçisi Azərbaycan ordusunun gücünü görmədən, itki vermədən qeyd-şərtsiz Qarabağ ətrafındakı rayonları Azərbaycana qaytarmayacaqdı. Hətta 1990-cı illərin ortalarında "mərhələli həll" planına razılaşan Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan ermənilərin şərtlərinin yerinə yetirilməsi müqabilində cəmi 5 rayonun qaytarılmasına razılaşırdı. Paşinyan müharibə ilə üzləşməsəydi, bəlkə yenə Şuşada içkili vəziyyətdə yallı gedərək Azərbaycana acıq verərdi. Ona görə də müharibə labüd idi ki, Paşinyan bugünkü reallığı anlasın və bunu cəmiyyətinə də anlatsın".



Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə isə hesab edir ki, Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanla danışıqlarda sülh müqaviləsinin bağlanması üçün artıq Qarabağla bağlı status məsələsini qaldırmayacaq: "Halbuki xarici işlər naziri Mirzoyan Azərbaycanla sülh müqaviləsində Ermənistan üçün "Artsaxın statusunun" prinsipail olduğunu vurğulayırdı. Ermənistan tərəfi konkret geri addım atıb və bundan sonra Yerevan bu məsələləri qabartmayacaq. Qarabağın kiçik bir ərazisində separatizm və silahlı erməni birləşmələrinin qalması və buradakı fəaliyyətləri Rusiya tərəfindən idarə edilir. Paşinyan anlayır ki, Qarabağda separatçıların fəaliyyəti və onları müdafiə etməsi Ermənistanı çıxılmaz vəziyyətdə saxlayır".

Politoloq onu da qeyd edib ki, Ermənistanla sülh müqaviləsi bağlandıqdan sonra, Rusiya təxirbatlara rəvac verməsə, Xankəndində Azərbaycanın suverenliyi bərpa ediləcək: "Ermənistanın 30 il ərzində apardığı işğal və Rusiyanın bu prosesi idarə etməsi Türkiyə-Azərbaycan tandemi vasitəsi ilə sona çatır. Azərbaycan Ermənistanla sülh müqaviləsinin tez bir zamanda bağlanmasına çalışır ki, növbəti beş ildə Qarabağda Rusiya sülhməramlı qüvvələrinə ehtiyac olmasın. Müqavilənin bitməsinə qədər sülh müqaviləsi bağlanarsa, Ermənistan da sülhməramlı qüvvələrlə bağlı müqavilənin uzadılmasını qəbul etməyəcək".

***Z.Məmmədli***

## İlham Əliyevdən Səfərbərlik Xidməti ilə bağlı fərman



***"Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında Əsasnamə" təsdiq edilib.***

"Unikal"ın məlumatına görə, Prezident İlham Əliyev bununla bağlı fərman imzalayıb.

Bundan başqa, "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti hərbi qulluqçularının hərbi geyim formasının və fərqləndirmə nişanlarının təsvirləri" də təsdiq edilib.

Nazirlər Kabineti Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti hərbi qulluqçularının hərbi geyim forması və ləvazimat ilə təmin edilməsi normalarını iki ay müddətində müəyyən etməli, fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Prezident Albaniyanın Baş naziri ilə təkbətək görüşüb

***Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.***

"Unikal" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

## Vüqar Gülməmmədov Milli Məclisdə hesabat verəcək



***Azərbaycan Respublikası Hesablama Palatasının illik hesabatı haqqında sənəd Milli Məclisə daxil olub.***

Yaxın günlərdə məruzənin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirəsi gözlənilir. Komitə iclasında müzakirələrdən sonra sənəd Milli Məclisin plenar iclasına tövsiyə ediləcək.

Plenar iclasda hesabatı Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun təqdim edəcəyi bildirilir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

## Şuşada komitələrin növbəti iclası bu tarixdə keçiriləcək

***Milli Məclisin İnsan hüquqları komitəsi ilə İctimai birliklər və dini qurumlar komitəsi Şuşada birgə iclas keçirəcək.***

"Unikal" xəbər verir ki, birgə iclasın aprelin 27-də keçirilməsi nəzərdə tutulur. İclasın gündəliyi haqqında yaxın günlərdə ictimaiyyətə məlumat veriləcək.

Xatırladaq ki, Milli Məclisin sədri Sahibə Qafarova Şuşa şəhərində hər ay parlamentin komitə iclaslarının keçiriləcəyini bildirib. Sədr iclasların qrafikinin artıq tərtib olunduğunu söyləyib.

## Prezident yeni neft sazişini təsdiqləyib

***Prezident İlham Əliyev "Azərbaycan Respublikasında Buzovna-Maştağa, Qala və Zirə neft yataqlarının daxil olduğu blokun bərpası və işlənməsi ilə əlaqədar Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə "GL İnternational LTD" MMC arasında Risk Xidmət Sazişinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə" Qanunu təsdiqləyib.***

"Unikal"ın xəbərinə görə, 2021-ci il dekabrın 14-də Azərbaycan Respublikasında Buzovna-Maştağa, Qala və Zirə neft yataqlarının daxil olduğu blokun bərpası və işlənməsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("SOCAR") ilə "GL International LTD" MMC ("GL LTD") arasında Risk Xidmət Sazişi bağlanıb.

Milli Məclis Konstitusiyanın 95-ci maddəsinin I hissəsinin 4-cü bəndinə əsasən qərara alıb:

1. Azərbaycan Respublikasında Buzovna-Maştağa, Qala və Zirə neft yataqlarının daxil olduğu blokun bərpası və işlənməsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "GL International LTD" MMC arasında Risk Xidmət Sazişi (bundan sonra - "Saziş") qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən Sazişdə iştirak edən Podratçıya verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra - "Hökumət təminatı") qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on bir (11) Əlavə (bundan sonra - "Əlavələr") qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret olaraq başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Podratçıya bütün lazımi lisenziyalar, icazələr, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişin şərtlərinə uyğun olaraq, Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin Tərəflərinin qarşılıqlı yazılı razılığı ilə edilir.

## Maliyyə Nazirliyi büdcə təşkilatlarına müraciət edib

***"Mühasibat uçotu haqqında" qanuna əsasən, dövlətə məxsus olan hüquqi şəxslərin, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər istisna olmaqla, digər ictimai əhəmiyyətli qurumların, iri, orta sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasibləri peşəkar mühasiblər olmalıdırlar.***



"Unikal" xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin büdcə təşkilatlarına müraciətində bildirilir.

Qurum bəyan edib ki, Nazirlər Kabinetinin 25 oktyabr 2018-ci il tarixli qərarına əsasən, mərkəzləşdirilmiş xərclərdən maliyyələşdirilən büdcə təşkilatlarının baş mühasibləri bu ilin sonuna qədər, yerli xərclərdən maliyyələşdirilən büdcə təşkilatlarının baş mühasibləri isə gələn ilin sonuna qədər peşəkar mühasib sertifikatı əldə etməlidirlər. Nazirlər Kabinetinin 22 may 2019-cu il qərarına əsasən, sertifikatının verilməsi üçün imtahanları Dövlət İmtahan Mərkəzi keçirir.

İnzibati Xətalar Məcəlləsinə əsasən, peşəkar mühasib olmayan şəxslərin baş mühasib vəzifəsinə təyin edilməsinə, habelə bu vəzifənin icrasının həvalə edilməsinə görə vəzifəli şəxslər inzibati məsuliyyətə cəlb ediləcək.

## 15 nəfər koronavirusa yoluxub, 1 nəfər ölüb

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 15 yeni yoluxma faktı qeydə alınıb, 24 nəfər müalicə olunaraq sağalıb.***



Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 1 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 792 320 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 782 440 nəfər müalicə olunaraq sağalıb, 9 705 nəfər vəfat edib, aktiv xəstə sayı 175 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4 008, ötən müddət ərzində isə ümumilikdə 6 759 211 test aparılıb.

# Azərbaycanla Gürcüstan arasında sərhəd-buraxılış məntəqələri ilə bağlı sənəd təsdiqləndi



***Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Azərbaycan Respublikası və Gürcüstan arasında dövlət sərhədindən buraxılış məntəqələri haqqında" Sazişi təsdiqləyib.***

"Unikal"ın xəbərinə görə, Sazişlə Azərbaycanla Gürcüstan arasında sərhəd-buraxılış məntəqələri müəyyənləşib.

Həmin buraxılış məntəqələri aşağıdakılardır:

1. Daimi, beynəlxalq, sərnişin və yük əlaqələri üçün:

**Dəmiryolu**

"Böyük-Kəsik (Azərbaycan) - Qardabani (Gürcüstan);

**Avtomobil**

- "Qırmızı körpü" (Azərbaycan) - "Krasniy Most" (Gürcüstan);
- "Mazımqara" (Azərbaycan) - "Tsodna" (Gürcüstan).

2. Daimi avtomobil, sərnişin və yük əlaqələri üçün birgə, beynəlxalq, avtomobil buraxılış məntəqələri

"İpəkyolu" (Azərbaycan) - "Abreşumis Qza" (Gürcüstan);

3. Daimi, dövlətlərarası sərnişin və yük əlaqələri üçün:

piyadalar üçün avtomobil;

"Sadaxlı" (Azərbaycan) - "Vaxtangisi" (Gürcüstan)

4. Mövsümi dövlətlərarası, sərnişin və yük əlaqələri üçün yalnız sərhədyanı rayonlarda yaşayan vətəndaşlar üçün (yay vaxtı buraxılış rejimi saat 08:00-dan 21:00-dək, qış vaxtı saat - 08:00-dan 18:00-dək):

piyadalar üçün avtomobil

"Muğanlı" (Azərbaycan) - "Samtatskaro" (Gürcüstan).

Sənədə əsasən, tərəflərin səlahiyyətli orqanları ayrı-ayrı protokollarla "İpəkyolu" - "Abreşumis Qza" birgə buraxılış məntəqəsindən daşınan mal və nəqliyyat vasitələri ilə bağlı sərhəd və gömrük prosedurlarını tətbiq olunma prinsiplərini müəyyən edəcəklər.

Bu saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Sənəddə həmçinin qeyd edilib ki, ayrı-ayrı buraxılış məntəqələrində dövlət sərhədlərində hərəkətin dayandırılması və ya məhdudlaşdırılması sanitar-karantin, baytar, fitosanitar səbəblərdən, habelə fövqəladə və ya hərbi vəziyyət, ictimai təhlükəsizlik anlamından, təbii fəlakət üzündən, karantinli zərərli orqanizmlər, epidemiya və epizootiyalar yayıldıqda tətbiq oluna bilər.

Hərəkəti dayandırmaq və ya məhdudlaşdırmaq niyyətində olan tərəf buraxılış məntəqələrində hərəkətin dayandırılması və məhdudlaşdırılması səbəblərini və müddəti göstərməklə, planlaşdırılan dayandırma və ya məhdudlaşdırmadan 5 (beş) gündən gec olmayaraq bu barədə digər tərəfi diplomatik kanallar vasitəsilə məlumatlandırır.

Fövqəladə hallar və ya təbii fəlakətlər zamanı hərəkətin dayandırılmasından əvvəl 24 saatdan gec olmayaraq qarşı tərəfi məlumatlandırma həyata keçirilməlidir.

Buraxılış məntəqələrinin obyektlərinin və ya komnukasiya qurğularının nəzərdə tutulan təmiri ilə bağlı dövlət sərhədində hərəkətin dayandırılması və ya məhdudlaşdırılması barəsində tərəflər bu işlərin başlanmasından əvvəl 3 aydan gec olmayaraq onların başa çatma vaxtını bildirməklə bir-birini məlumatlandırırlar.

Sənəddə vurğulanıb ki, şəxslərin sərhədi avtomobil buraxılış məntəqələrindən keçməsi nəqliyyatdan istifadə etməklə və piyada qaydada həyata keçirilə bilər.

# Zakir Həsənov Vətən müharibəsində yaralananların sayını açıqladı

***Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Vətən müharibəsində yaralanan şəxslərin sayını açıqlayıb.***



"Unikal" xəbər verir ki, nazir Vətən müharibəsində hərbi həkimlərimizin və tibb personalının göstərdiyi fədakarlıqların Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirildiyini xüsusi vurğulayıb. O, dövlətimizin diqqət və qayğısı nəticəsində Vətən müharibəsi dövründə sağlamlığını itirmiş 259 nəfərin xarici ölkələrə müayinə və müalicəyə göndərildiyini, onların böyük əksəriyyətinin müalicəsini başa vuraraq Vətənə qayıtdıqlarını diqqətə çatdırıb. Həmçinin qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanının tələblərinə əsasən 1997-ci ilin 2 avqust tarixinə kimi Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Həkim Komissiyası tərəfindən verilmiş 17995 şəhadətnamə elektron informasiya alt sisteminə yerləşdirilib. General-polkovnik Z.Həsənov Vətən müharibəsi zamanı yaralıların döyüş meydanından təxliyə olunması, 11110 nəfərə tibbi yardımın göstərilməsi və tezliklə sağalması üçün əllərindən gələni edən tibb işçilərinə təşəkkürünü bildirib.

# Xüsusi nümayəndələrin üçüncü görüşü Vyanada olacaq

***Türkiyə və Ermənistan xüsusi nümayəndələri Serdar Kılıç və Ruben Rubinyan arasında üçüncü görüş Avstriyanın paytaxtı Vyanada olacaq.***

"Unikal" xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. "Təzyiq altında ola bilərsiniz. Bu, asan proses deyil. Lakin artıq üçüncü ölkədə görüşməyə ehtiyac varmı? Bir tərəfdən sərhədlər açılsın deyirsiniz, digər tərəfdən isə görüşlərin Türkiyə və Ermənistanda keçirilməsinə cəsarət etmirsiniz", - XİN başçısı bildirib.

# Cavanşir Feyziyev vəzifəsindən azad olunur

***Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarına rəhbərlər seçiləcək.***



"Unikal"ın xəbərinə görə, bununla bağlı "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Milli Məclisin qərar layihəsi parlamentin sabah keçiriləcək iclasında müzakirəyə çıxarılacaq.

Belə ki, Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri vəzifəsinə Soltan Məmmədovun, Azərbaycan-Mavritaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri vəzifəsinə isə Sadiq Qurbanovun namizədliyi irəli sürülüb.

Qeyd edək ki, hazırda Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyevdir.

# Mərkəzi Bank bu şirkəti cərimələdi

***Əkinçilik və heyvandarlıqla məşğul olan "Xızı Agro Park" MMC məhkəməyə verilib.***

Buna səbəb Azərbaycanda kənd təsərrüfatı yönümlü məhsullar istehsal edən "CTC Holdinq" ASC-ə daxil olan bu müəssisənin xaricə valyuta göndərərək, əvəzində hər hansı mal idxal etməməsi və ya xidmət göstərməməsi olduğu bildirilir.

Azərbaycan Mərkəzi Bankı "Xızı Agro Park" MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsi ilə protokol tərtib edib. Protokol baxılması üçün Xızı Rayon Məhkəməsinə göndərilib. İş hakim Emin Abdullayevin icraatına verilib.

İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsinə əsasən avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmamasına görə, hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin 20 faizindən 30 faizinədək məbləğdə cərimə edilir.

"CTC Holdinq"in tabekiyində 7 aqrar şirkət var. Bura "Xızı Agro Park" MMC, "Aqro Qala" MMC, "Xınalıq İM" MMC, "CTC Servis" MMC, "CTC İnvest" MMC, "Meat Diary" MMC və "Milk-Pro" MMC (Sevimli Dad) kimi şirkətlər daxildir.

# Natiq Əmirov yeni sədri kollektivə təqdim etdi

***Ötən gün Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilən Taleh Kazımov kollektivə təqdim olunub.***

"Unikal" xəbər verir ki, yeni AMB sədrini kollektivə Prezidentin köməkçisi-Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov təqdim edib.

Qeyd edək ki, buna qədər Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov olub.

***Anar Kəlbiyev***

# Baş nazirdən qərar

***Bu şəxslər COVID-19 pasportu ilə Azərbaycana daxil ola biləcəklər***

Rusiya və Türkiyə vətəndaşlarının Azərbaycana daxil olması ilə bağlı COVID-19-a dair PCR testi tələbi ləğv olunub.

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov Nazirlər Kabinetinin "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın təsdiq edilməsi barədə" 2020-ci il 11 iyun tarixli 199 nömrəli və "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" 2021-ci .il 26 may tarixli 151 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında qərar imzalayıb.

Dəyişikliklə Rusiya Federasiyasının və Türkiyə Respublikasının vətəndaşlarına və həmin ölkələrdə daimi yaşayan digər ölkə vətəndaşlarına, habelə vətəndaşlığı olmayan şəxslərə - COVID-19 pasportu (COVID-19-a qarşı tam peyvənd olunmasını və ya COVID-19-dan sağalaraq immunitetə malik olmasını təsdiq edən sənəd) əsasında (yaşı 18-dək olan şəxslər istisna olmaqla) hava nəqliyyatı vasitəsilə aşağıdakı şəxslərin Azərbaycan Respublikasına giriş-çıxışına icazə veriləcək.

# Azərbaycana giriş üçün PCR test tələbi ləğv olundu



***Azərbaycana giriş üçün COVID-19-a dair PCR testinin təqdim etmək tələbi ləğv olundu. Bu barədə "Unikal"a Nazirlər Kabinetindən məlumat verilib.***

Nazirlər Kabinetinin 14 aprel 2022-ci il tarixli qərarına əsasən 2022-ci il aprelin 15-dən etibarən:

- Azərbaycan Respublikasına giriş üçün COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənədi təqdim etmək tələbi ləğv edilir;
- Ölkədaxili uçuşlar zamanı sərnişinlərdən COVID-19-a dair PCR testin neqativ nəticəsini təsdiq edən sənəd tələb olunmur.

Aprelin 15-dən etibarən Bakı-Naxçıvan-Bakı müntəzəm avtobus marşrutunun İran İslam Respublikasının ərazisindən keçməklə avtobus marşrutu ilə hərəkət edən sərnişinlərdən də COVID-19-a dair PCR testin neqativ nəticəsini təsdiq edən sənəd tələb olunmur.

# Çavuşoğlu: "Putinlə Zelenski görüşə bilər"



***"Rusiyanın Ukraynaya qarşı təcavüzünü qəbul etmədiyimizi bildirmişik. Bunu beynəlxalq platformalarda da söyləmişik. Digər tərəfdən, heç kəs buna "müharibə" demədiyi halda biz bunun müharibə olduğunu söyləyərək Montrö razılaşmasını tam tətbiq etdik".***

"Unikal" xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu NTV telekanalına müsahibəsində söyləyib. Onun sözlərinə görə, Türkiyə hava məkanını hərbi təyyarələr üçün bağlasa da, analoji addımı mülki reyslər üçün ata bilməz. M.Çavuşoğlu həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla rusiyalı və ukraynalı həmkarları arasında telefon danışığının baş tutacağını söyləyib:

"Fikrimcə, Putinlə Zelenski görüşə bilər.Xüsusən Putin görüşə razılıq verməlidir. Əslində, o, "yox" deməyib. Doğrudur, son günlər baş verənlər gərginliyi bir az da artırıb. Tərəflərin görüşməsi üçün tələblər arasındakı fərq azalmalıdır. Bu istiqamətdə isə səylər davam edir".

# Bağçalara qəbulun MİQ-ə aidiyyatı yoxdur - Nazirlik

***"Məktəbəqədər təhsil müəssisələrinə bütün heyətin qəbulu onlayn qaydada aparılacaq".***

Bu barədə Təhsil Nazirliyinin İctimaiyyətlə Əlaqələr Sektorunun müdiri Cəsarət Valehov bildirib.

Nazirlik rəsmisi qeyd edib ki, məktəbəqədər təhsil müəssisələrinə işə qəbulun tam qaydaları haqqında məlumat vermək hələlik tezdir:

"İstənilən halda bu prosesin MİQ imtahanlarına aidiyyatı yoxdur. Müəllimlərin məktəbəqədər təhsil müəssisələrinə MİQ imtahanları vasitəsilə qəbul ediləcəyi haqqında iddialar doğru deyil".

Qeyd edək ki, sosial şəbəkələrdə məktəbəqədər təhsil müəssisələrinə müəllimlərin MİQ imtahanları ilə qəbul ediləcəyi haqqında iddialar yayılıb.

# "Süni qiymət artımına nəzarət tədbirləri daha da gücləndirilməlidir"

## Cavid Osmanov: "Prezident hökumət qarşısında bəzi işbazların süni qiymət artımına cəhd etmələrinin qarşısının alınması ilə bağlı tapşırıqlar müəyyənləşdirdi"

***Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü Cavid Osmanov "Unikal"a müsahibə verib. O, 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə səslənən fikirlər, ölkənin sosial-iqtisadi durumu, gözləntilər barədə fikirlərini bölüşüb.***

***-Bu həftə Prezident İlham Əliyevin sədrliyi ilə 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirildi. Dövlət başçısı Brüssel görüşündən danışarkən qeyd etdi ki, Ermənistan 5 prinsipi qəbul edib. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü tanınır və Ermənistan Azərbaycana qarşı ərazi iddiasından əl çəkir. Bundan sonra bu istiqamətdə hansı addımların atılacağı gözlənilir?***



-Prezident İlham Əliyevin rəhbərliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirildi. Burada tək 2022-ci ilin birinci rübünün yekunlarına deyil, ümumilikdə böyük bir dövrə yekun vurulub və gələcək perspektivlər müəyyənləşdirilib. Bununla yanaşı, müşavirədə bir sıra vacib məqamlara da toxunuldu, yeni mesajlar verildi. Ölkəmizin qarşısında duran əsas prioritetlər bir daha konkretləşdirildi. Vacib məsələlərdən biri də Ermənistan tərəfindən Azərbaycanın təklif etdiyi sülh müqaviləsinin imzalanması üçün 5 prinsipin qəbul edilməsidir ki, Prezident İlham Əliyev Brüssel görüşündən danışarkən bu məsələni xüsusi qeyd etdi. Məlum olduğu kimi, aprelin 6-da Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş olub. Yekun bəyanat bir daha onu göstərdi ki, Azərbaycan həmin görüşün gündəliyini müəyyənləşdirən ölkədir. Bu görüşün nəticələri Azərbaycanın növbəti diplomatik qələbəsidir. Ölkə başçısı bildirdi ki, Ermənistan 5 baza prinsipini qəbul edib. Bəyanatda da səsləndirildi ki, artıq bunun üçün təmasların həyata keçirilməsinə ehtiyac var.

Bu günlərdə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla telefon danışığı baş tutub. Nazirlər iki dövlətin liderləri səviyyəsində əldə olunmuş razılaşmaların davamı olaraq, gələcək sülh sazişinin hazırlanması üzrə iş, Birgə Sərhəd Komissiyasının təşkili, habelə humanitar məsələlər üzrə fikir mübadiləsi apardılar. Yaxın vaxtlarda bu istiqamətdə işlərə başlanılacaqmı?

-Azərbaycan tərəfinin sülh müqaviləsi ilə bağlı 5 maddədən ibarət təklifi qəbul olunub. Görünən odur ki, həmin 5 maddə artıq qəbul olundu və bunun əsasında da danışıqlar aparıldı. Artıq həm Azərbaycanın, həm də Ermənistanın xarici işlər nazirliklərinə bununla bağlı tapşırıqlar verildi ki, bu sənədin üzərində iş aparılsın. İlk növbədə qeyd olunan vacib nüanslardan biri də əlbəttə, sərhədlərin delimitasiyası prosesinə başlanılması barədə razılığın əldə olunmasıdır. Bunun davamı kimi delimitasiyanın tərkibi və nəticəsi olaraq isə sərhəddə gərginliyin aradan qaldırılması vacib məqamlardan biridir. Eyni zamanda, sülh müqaviləsi ilə bağlı sənədin hazırlanmasına başlanılması istiqamətində siqnalların verilməsi əməli, praktik məsələlərdir. Burada eyni zamanda, Azərbaycanın ərazi bütövlüyü də qəbul olunur. Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyü rəsmi olaraq tanınır. Ermənistanın növbəti öhdəliyi Azərbaycana qarşı heç bir ərazi iddiasının olmamasıdır. İlk dəfə baş tutan bu telefon danışığı Brüsseldə əldə olunmuş razılaşmanın icrasından irəli gələn məsələlərin müsbət siqnalıdır.

***-Dövlət başçısı müşavirədə bildirdi ki, son üç ayda inflyasiya 18 faizə qalxıb. Dünyada ərzaq məhsullarının və digər məhsulların qiymətinin artması, təbii ki, daxili qiymətlərə də təsir edir. Antiinflyasiya tədbirlərinin görülməsi istiqamətində hansı addımlar atılmalıdır? Eyni zamanda belə məqamlarda süni qiymət artımlarına da rast gəlinir. Bunun qarşısını almaq üçün hansı işlər görülməlidir?***

-Antiinflyasiya tədbirlərinin genişləndirilməsi, effektiv tədbirlərin həyata keçirilməsi və süni qiymət artımının qarşısını almaq üçün İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti nəzarət tədbirlərini daha da gücləndirməlidir. Prezident İlham Əliyev Azərbaycan hökuməti qarşısında antiinflyasiya tədbirlərinin gücləndirilməsi, qiymət artımlarının nəzarətdə saxlanılması, belə məqamda bəzi işbazların süni qiymət artımına cəhd etmələrinin qarşısının alınması ilə bağlı tapşırıqlar müəyyənləşdirdi. Qarşıya qoyulan əsas vəzifələrdən biri də idxal edilən məhsulların sayını azaltmaqdır. Burada əsas məsələ ərzaq buğdası ilə bağlıdır. Ərzaq buğdasının 25 faizi daxili tələbat hesabına ödənilir, qalan hissə isə idxal olunur. Ölkəmizdə buğda əkini sahələrinin genişləndirilməsi üçün potensial var. Bunun üçün işğaldan azad olunmuş ərazilərimizdən də səmərəli istifadə etməliyik. Məlumdur ki, Ermənistan tərəfindən minalanmış ərazilərimiz çox böyükdür. Bu istiqamətdə Azərbaycan dövləti tərəfindən çox ciddi işlər görülür. Minalardan təmizlənmiş ərazilərdə əkin işləri aparılır. Bu torpaqlardan səmərəli istifadə etməklə idxaldan asılılığı azalda bilərik. Bununla yanaşı sahibkarlara verilən güzəştli kreditlərin həcmini artırmaq lazımdır. Bu kreditlər daha çox verilməlidir ki, sahibkarlar bu işdə fəal iştirak etsinlər.

***-Parlamentin bu günlərdə keçirilən plenar iclasının birində bələdiyyələrlə bağlı məsələ əsas müzakirə mövzusu idi. Bələdiyyələrin sayının çox olması məsələsi qeyd olundu. Növbəti illərdə bələdiyyələrin birləşdirilməsi və ya ləğv olunması gözlənilirmi?***

-Həmin iclasda bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi, effektivliyinin artırılması istiqamətində bir sıra təkliflər irəli sürüldü. O cümlədən, bəzi bələdiyyələrin birləşdirilməsi ilə bağlı təkliflər də oldu. Ölkəmizdə bələdiyyələrin birləşdirilməsi praktikada olub. Düşünürəm ki, bir çox bələdiyyələrin birləşdirilməsinə ciddi ehtiyac var. Bununla onların potensialını artırmaq mümkündür. Bələdiyyələr birləşdikdən sonra daha effektli xidmət göstərə və seçildikləri ərazilərdə müəyyən layihələri həyata keçirə bilərlər. Bəzi bələdiyyələrin birləşdirilməsinə müsbət baxıram. Gələcəkdə bu proses baş verə bilər.

***Anar Kəlbiyev***

# Ölkədəki bahalaşmada məmur izləri...

## Vətəndaşın canına və cibinə "qəsd edən" natəmiz sahibkarların arxasında kimlər var?

***Aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev ölkədəki bahalaşma ilə bağlı fikirlərini açıqladı. Ölkə rəhbəri bildirdi ki, ona verilən məlumata görə, son üç ayda inflyasiya 18 faizə qalxıb: "Bu, əlbəttə ki, yüksək rəqəmdir".***

"Amma onu da bilməliyik ki, bunun bir hissəsi idxal edilmiş inflyasiyadır. Çünki dünyada ərzaq məhsullarının və digər məhsulların qiymətinin artması, təbii ki, daxili qiymətlərə də təsir edir. Ancaq, eyni zamanda, onu da bildirməliyəm ki, üç ayda əhalinin gəlirləri təxminən 20 faiz artıb və əgər biz inflyasiyanı əhalinin gəlirləri ilə müqayisə etsək, burada yenə də real gəlirlər artmış olur. Ancaq o demək deyil ki, biz buna laqeyd yanaşmalıyıq.

Ona görə antiinflyasiya tədbirlərinin görülməsi, gücləndirilməsi zəruridir. Əlbəttə ki, burada əsas məsələ süni qiymət artımının qarşısının alınmasıdır. Çünki belə hadisələrdə, belə geosiyasi vəziyyətdə bəzi natəmiz sahibkarlar bundan istifadə etməyə çalışırlar və heç bir əsas olmadan qiymətləri artırırlar. Buna xüsusi diqqət göstərilməlidir", - Prezident qeyd etdi.



Qeyd edək ki, yanvar-mart ayları ərzində ölkədə istehlak qiymətləri indeksi 2021-ci ilin eyni dövrü ilə müqayisədə 12,2 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün 17, qeyri-ərzaq 6,2, xidmətlər üzrə isə 10,1 faiz artıb. Ümumiyyətlə, martda istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 1,1, əvvəlki ilin mart ayına nisbətən isə 12,1 faiz yüksəlib. Ay ərzində ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə əvvəlki aya nisbətən 1,5 faiz, əvvəlki ilin mart ayına nisbətən isə 16,8 faiz bahalaşma nəzərə çarpıb.

Onu da deyək ki, bir sıra ekspertlər, o cümlədən bu sətirlərin müəllifi tərəfindən qiymət yüksəlişinin bu ilin ilk yarısının sonuna yaxın səngiyəcəyi proqnozlaşdırılırdı. Bu sıraya istehsal, tədarük və ticarət sahələri daxil edilirdi, ehtimal irəli sürülürdü ki, onlar pandemiyanın zəifləməsi ilə əvvəlki güclərini bərpa edəcəklər. Lakin Rusiyanın Ukraynaya hərbi müdaxiləsi belə bir optimist proqnozun reallaşmasını şübhə altında qoydu.

Eyni zamanda, ölkə başçısının da vurğuladığı kimi, bəzi natəmiz sahibkarların qlobal miqyasda baş verənlərdən istifadə etmək cəhdlərini görməzdən gəlmək mümkün deyil. Belə sahibkarlar böhranlı situasiyalardan öz mənafeləri naminə yararlanmaqda pis heç nə görmür, bununla da inflyasiyanı körükləyirlər.

Daha bir önəmli nüans isə həmin iş adamlarının bir çox hallarda bu və ya digər məmurlar tərəfindən himayə edilməsidir. Son illərdə Azərbaycanda qanunvericiliklə ziddiyyət təşkil edən iki halın:

1. İnhisarçılığın;

2. Məmur sahibkarlığının aradan qaldırılması istiqamətində ciddi addımlar atılıb; hər iki tendensiya əhəmiyyətli şəkildə zəifləmişdir. Bununla belə, sözügedən halların tam ləğvinə nail olunduğunu söyləmək üçün hələ tezdir.

Elə ona görədir ki, əksər iqtisadçılar süni qiymət artımında bəzi məmurların, xüsusilə onların birbaşa və ya dolayı yolla himayə etdiyi sahibkarların həlledici rol oynadığı fikrində həmrəydirlər. Hesab edilir ki, Rəqabət Məcəlləsinin Milli Məclisdə qəbulunun artıq 15 ildən çoxdur "dalana dirənməsi", vəzifəli şəxslərin gəlir deklarasiyaları ilə bağlı yeniliyin olmaması kimi nüanslar da Azərbaycanda gizli məmur sahibkarlığının tam aradan qaldırılmasını əngəlləyir. Bu isə son nəticədə süni bahalaşmaya "yaşıl işıq" yandıran başlıca faktora çevrilir.

Dövlət başçısının da qeyd etdiyi kimi, inflyasiyaya qarşı effektli tədbirlərin həyata keçirilməsi, belə tədbirlərin gücləndirilməsi zəruridir. Həmin tədbirlərdən ən mühümləri isə azad rəqabət mühitinin təmin olunmasıdır. Əks təqdirdə, hökumət nə qədər çox səy göstərsə belə, natəmiz sahibkarların, müxtəlif işbazların qiymət soyğunçuluğunu əngəlləmək mümkünsüz olacaq. Beləleri, müəyyən vəzifəli şəxslərin himayəçiliyinə arxayın olaraq, cəzalandırılmayacaqlarını düşünərək bahalaşmanı körükləməyə davam edəcəklər.

Xatırladaq ki, 2019-cu ilin oktyabrında Prezident yeni Baş nazir müavini təyin etdiyi Şahin Mustafayevi qəbul edərkən kölgə iqtisadiyyatına son qoyulması, biznes mühitinin yaxşılaşdırılması, inhisarçılığın aradan qaldırılması istiqamətində iş aparılmasını istəmişdi.

"Bəzi hallarda dövlət məmurları, hansılar ki, eyni zamanda, müxtəlif biznes dairələrinə də kömək göstərirlər, onlar haqsız rəqabət aparırlar. Azərbaycanda inhisarçılığa qarşı mübarizə mütəşəkkil xarakter daşımalıdır. Əgər biz buna nail olsaq, əlbəttə, biznes dairələri üçün daha yaxşı şərait yaradılacaq" - deyən dövlət başçısının sözlərindən iqtisadi rəqabət mühitinin hər baxımdan nə qədər əhəmiyyət daşıdığı bir daha aydın olurdu.

Bəli, bu cür mühit antiinflyasiya baxımından da həyati önəm daşıyır. Süni qiymət artımının "zərdabı" məhz rəqabətlilikdir. O da unudulmamalıdır ki, rəqabətlilik ortaya yalnız yüksək keyfiyyət və kəmiyyət baxımından deyil, uyğun qiymət baxımından da məhsul çıxarılmasını şərtləndirir.

Məmur sahibkarlığı, hansısa vəzifəli şəxsin "kölgəsində" biznes fəaliyyəti ilə məşğul olanların mövcudluğu şəraitində isə məhsulların keyfiyyəti müştərinin canına, qiyməti alıcının cibinə qənim kəsilir.

Probleme həm də bu prizmadan, bu gerçəklikdən yanaşmaq lazımdır ki, antiinflyasiya tədbirlərinin də real, dayanıqlı, davamlı nəticələri olsun...

***Sənan Mirzə***




# "Qaçqınkom" 510 məcburi köçkünü məhkəməyə verdi

***"Məcburi köçkünlər üçün verilən mənzillərdə yaşamayanların monitorinqi davam etdirilir".***

"Unikal"ın xəbərinə görə, bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bildirib.

"Məcburi köçkünlərin hər biri mənim üçün əzizdir. Bəzən elə hallar olur ki, məcburi köçkünlərin mənzilləri öz adlarına olmur, yataqxanada yaşayırlar. Adətən, köçürülmə zamanı yataqxanalarda yaşayan məcburi köçkünlər nəzərə alınır. Ancaq biz sonradan gördük ki, onlar həmin evlərdə yaşamırlar. Ona görə də 510 belə halla bağlı məhkəmə müraciətimiz var. Məhkəmə qərarı çıxardıqca bizdə siyahısı olan məcburi köçkün, şəhid və qazi ailələri həmin mənzillərə yerləşdirilir. Bu, asan məsələ deyil. Bu hallar Bakıda və rayonlarda olan qəsəbələrimizdə var", - komitə rəhbəri vurğulayıb.

# Nazirlikdən oruc tutan şəkər xəstələrinə çağırış

***"Şəkərli xəstələrdə oruc tutmaq müxtəlif ağırlaşmaların inkişaf riskini artıra bilər".***

"Unikal" xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Günay İsmayılova bildirib. Onun sözlərinə görə, qida rejimində kəskin dəyişiklik, hipoqlikemik dərmanlar qəbulundan imtina, maye qəbulunu məhdudlaşdırılması diabetik ketoasidoz, ketoasidotik və hiperosmolyar koma kimi ağır ağırlaşmalara, kəskin trombozun inkişafına, ağır hipoqlikemiyaya səbəb ola bilər: "Baş verə biləcək ağırlaşmaların əsasında qlükoza, sərbəst yağ turşuları, maye və elektrolit balansının mübadiləsində pozğunluqlar yaranır. Bu səbəbdən oruc tutmazdan öncə diabet xəstələri həkimlərin tövsiyələrini nəzərə almalıdır. Diabet olmayan insanlarda qida qəbulu insulinin ifrazını stimullaşdıraraq, qlükozanın qaraciyərdə və əzələlərdə glikogen ehtiyatını təmin edir.

Oruc tutarkən yeməkdən uzunmüddətli imtina qanda qlükozanın səviyyəsinin azalması və insulin ifrazının azalması ilə müşayiət olunur. Onlarda insulin və kontrainsulyar hormonlar vasitəsi ilə qanda qlükozanın səviyyəsi tənzimlənir. İnsulin çatışmazlığı olan xəstələrdə isə uzunmüddətli aclıq hiperglikemiya və ketoasidoza səbəb olan glikogenin həddindən artıq parçalanmasına, qlükoneogenez və ketogenezin artmasına gətirir. Qida qəbulunun azaldılması hipoqlikemiyanın inkişafı üçündə risk faktorudur".

Nazirlik rəsmisi deyib ki, oruclug zamanı uzun müddət mayenin qəbul olunmaması susuzluğa səbəb ola bilər: "Bu səbəbdən insan orqanizmində baş verən dəyişikliklər qanın qatılaşmasını və tromboz riskini daha da artıra bilər. Bir sıra tədqiqatların nəticələri oruc tutan xəstələrdə tutmayanlarla müqayisədə damar trombozlarının daha çox olduğunu göstərdi.

Çox yüksək risk qrupu - qlükoza səviyyəsini kontrol etməyənlər, tip 1 şəkərli diabet, xroniki böyrək çatışmazlığından, hər hansı yanaşı kəskin xəstəliklərdən əziyyət çəkənlər, hamilələr, hemodializdə olan xəstələr və s; Yüksək risk qrupu - hər hansı yanaşı xronik xəstəliklərdən əziyyət çəkənlər, makrovaskulyar ağırlaşmaları olan xəstələr və s; Orta risk qrupu - qanda qlükoza səviyyəsini ciddi kontrolda saxlaya bilənlər, hipoqlikemiyaya səbəb olma ehtimalı az olan dərman preparatlarını qəbul edənlər; Aşağı risk qrupu - yalnız pəhriz və ya metformin, glitazonlar, qliptinlər ilə müalicə olunan kafi glikemik nəzarəti olan xəstələr, hər hansı bir yanaşı xəstəlikləri olmayanlar və s. Qeyd edim ki, çox yüksək risk qrupunda olan diabetli xəstələrə oruc tutmaq tövsiyə olunmur. Yüksək risk qrupunda olan xəstələrin də oruc tutmaları səhhətlərinə təhlükə yarada bilər".



# "Məcburi köçkünlərin uçotunun dəqiqləşdirilməsi aparılıb" - Komitə sədri

***"Məcburi köçkünlərin uçotunun dəqiqləşdirilməsi, vahid elektron məlumat bazasının yaradılması təmin olunub. Repatriasiya prosesinin çevik və şəffaflıqla aparılmasına imkan verən avtomatlaşdırılmış sistem yaradılıb".***

"Unikal" xəbər verir ki, bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev deyib.

Komitə sədri bildirib ki, Azərbaycan uzun illər dünyada əhalisinin hər 10 nəfərindən 1-i qaçqın və ya məcburi köçkün olan yeganə ölkə olub: "Bu kateqoriyadan olan insanların problemlərinin həllinə xüsusi diqqət və həssaslıqla yanaşılıb, həmin məqsədlə hər il 100 milyon manatlarla dövlət vəsaiti xərclənib".

"Böyük qayıdışı həyata keçirməkdə ən böyük maneə mina problemidir". Komitə sədri bildirib ki, Zəngilan rayonunda Ağalı kəndinin tikintisi başa çatıb: "Yaxın zamanlarda biz məcburi köçkünlərimizi ora köçürəcəyik".

# Yeni baş bankir islahatlardan danışdı

***"Dövlət başçısı və ölkə parlamenti tərəfindən göstərilən yüksək etimada görə təşəkkürümü bildirirəm".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Mərkəzi Bankının yeni sədri Taleh Kazımov deyib.

O, ölkədə makroiqtisadi və maliyyə sabitliyinin qorunması, dayanıqlı iqtisadi inkişafı dəstəkləyən pul siyasətinin həyata keçirilməsi, maliyyə-bank sisteminin inkişafı, elektron ödəniş eko-sisteminin daha da gücləndirilməsi, ölkədə nağd pul tədavülünün keyfiyyətinin davamlı yüksəldilməsi və digər istiqamətlərdə qarşıya qoyulan hədəflərin layiqincə yerinə yetiriləcəyini bildirib.

T.Kazımov aparılan islahatların daha da dərinləşdirilməsi və hər bir Azərbaycan vətəndaşının keyfiyyətli maliyyə, o cümlədən bank, kapital bazarları və sığorta xidmətlərilə əhatə olunması vəzifələrinin layiqli şəkildə icrasının təmin ediləcəyini diqqətə çatdırıb.

# Təhsil şöbələri ləğv ediləcək? - Rəsmi açıqlama

***"Rayon təhsil şöbələri Regional Təhsil idarələrinin nəzdində yerli təhsil bölmələri kimi fəaliyyət göstərəcəklər".***

"Unikal" xəbər verir ki, bunu Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev "Təhsil masası"nda deyib.

Onun sözlərinə görə, həmin şöbələrin ixtisarı məsələsi gündəmdə deyil: "Əməkdaşlar öz işlərinə davam edəcəklər".

# Rəşad Nəbiyevə vəzifə verildi

***Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə yeni vəzifə verilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Cüdo Federasiyasının prezidenti olan R.Nəbiyev Beynəlxalq Cüdo Federasiyasının nəzdində yaradılmış Yeni Texnologiyalar və Yüksək Məhsuldarlıq Komissiyasının sədri təyin olunub.

# Elsevər Ağayev apteklərini itirir

## Sabiq nazir müavininin qurduğu "şəbəkə" dağılır

***Səhiyyə nazirinin sabiq müavini Elsevər Ağayevin nəzarətindəki apteklər kurasiyasından çıxmağa başlayıb. Belə ki, eks-müavinə birbaşa və ya dolayı yolla bağlı olan apteklərdən bəziləri artıq ona bağlı deyil. Bu barədə qəzetimizə səhiyyə sahəsindəki qaynaqlardan məlumat verilib.***

Xatırladaq ki, E.Ağayev ötən ayın əvvəlində ölkə başçısının imzaladığı müvafiq sərəncamla işdən çıxarılıb.

Hələ sabiq səhiyyə naziri Oqtay Şirəliyevin zamanında nazirliyin əsas söz sahibinə çevrilən və geniş biznes quran Ağayevin xüsusilə özəl xəstəxanalara və tibb müəssisələrinə qarşı təzyiqləri, onlara "haqq" qoyması, ələlxüsus da özəl klinikaların lisenziya məsələsində həlledici rolu ciddi narazılıqlar doğurmuşdu.



Lakin ən ilginc məqamlardan biri eks-müavinin çox sayda apteklərinin olması barədə iddialar idi. Əslində ölkədəki aptek sahiblərinin Elsevər müəllimdən saysız-hesabsız şikayətləri vardı, burada istisna olan isə Ağayevə birbaşa və ya dolayı yollarla bağlı olan apteklər idi. Hətta keçmiş müavin E.Ağayev Cənubi Qafqazda ən böyük dərman deposuna sahib olan "Avromed" dərman şirkətinin himayəçisi kimi də təqdim olunurdu. Onun imkanı isə yalnız nazir müavini postundan deyil, Farmakoloji və Farmakopeya Ekspert Şurasının sədri vəzifəsini tutmasından qaynaqlanırdı.

Xatırladaq ki, E.Ağayev artıq həmin vəzifəni də itirib. Bu vəzifə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Maliyyə Baş İdarəsinin sabiq rəis müavini, hazırda Səhiyyə nazirinin müavini olan Rasim İsmayılova tapşırılıb.

Yerli mətbuatın elə fevral ayında yaydığı məlumata görə, indiki səhiyyə naziri Teymur Musayev hələ nazir əvəzedicisi olduğu dönəmdə rəhbərlik etdiyi qurumda bu və bu kimi digər neqativ hadisələrin araşdırılması üçün müvafiq tapşırıqlar verib. Aidiyyatı qurumlar da nazirin tapşırığına uyğun olaraq araşdırmalara başlayıb və nəticələr barədə yeni naziri məlumatlandırıblar. Aydınlaşıb ki, Elsevər Ağayevin də vaxtilə rəhbərlik etdiyi sahələrdə bir sıra ciddi pozuntular aşkarlanıb.

Həmin vaxt Hesablama Palatasından "qaynarinfo"ya verilən açıqlamada 2021-ci ildə Səhiyyə Nazirliyində yoxlama aparıldığı təsdiqlənib. Audit Hesablama Palatasının Kollegiya iclasında müzakirəyə çıxarılıb və qərar qəbul edilib. Digər qurumlarla bərabər, Səhiyyə Nazirliyində də aparılan yoxlamaların nəticələri barədə hesabat dərc ediləcəyi bildirilib. Bu hesabatı intizarla gözləməyə dəyər.

Hələliksə onu qeyd edək ki, Elsevər Ağayev uzun illər ən böyük gəlirli və vacib sahə olan "Əczaçılıq və Tibb Sənayesi", "Dərman və Tibbi Texnika" İstehsalat-Ticarət Birliyinə də rəhbərlik edib. İddialar bu yöndədir ki, hər iki birliyin nəzdində fəaliyyət göstərən 1000-ə yaxın aptekdə və əczaçılıq mərkəzlərində onun qoyduğu şərtlərlə işlər aparılıb. Səhiyyə Nazirliyinə məxsus adıçəkilən birliklərin bəzi mülkləri isə özəlləşdirilərək nazir müavininin yaxın adamlarının adına keçirilib.

Yerli mətbuatın iddialarına görə, əczaçılıq sahəsində Azərbaycanda fəaliyyət göstərən 100-dən çox topdansatış dərman deposunun 50-yə yaxını, 3 mindən çox aptekin 500-ə qədəri Elsevər Ağayevin yaxın çevrəsinə məxsusdur. Maraqlıdır ki, bu iddianın mediada iki aya yaxındır yer almasına baxmayaraq sabiq nazir müavini tərəfindən görəsə niyə təkzib edilməyib.

İndi isə gələn xəbərlər bu yöndədir ki, Elsevər müəllimin nəzarətindəki apteklər onun illər uzunu qurduğu "şəbəkə"ni bir-bir tərk etməkdədir. Eyni prosesin sabiq nazir müavininə məxsus dərman depoları ilə bağlı da müşahidə edildiyi vurğulanmaqdadır.

Yeri gəlmişkən, deyilənə görə, Ağayevin öz postunu itirməsindən sevinənlər arasında təkcə apteklər, dərman şirkətləri deyil, bu sırada uşaq qidalarının idxalını və satışçını həyata keçirən firmaların da olduğu deyilir. Məsələ burasındadır ki, Elsevər Ağayev rəhbərlərindən olduğu nazirliyin siyasətinin əsas xətlərindən biri kimi "körpələrin qidalandırılmasında ana südünə üstünlük verilməsini" əsas gətirib həmin firmalar üzərində də ciddi basqı yaradırmış. Həmin firmalar mütəmadi yoxlamalara məruz qalır, incidilirmiş, odur ki vəziyyətdən çıxmaq üçün "müxtəlif axtarışlara" baş vurmalı olurlarmışg

Onu da deyək ki, E.Ağayevin fəaliyyətindən hətta sabiq səhiyyə naziri Oqtay Şirəliyevin belə narazı olduğu kimsəyə sirr deyil. Eks-nazirin öz müavini ilə bağlı dəfələrlə müvafiq qurumlara və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə müraciət etdiyi barədə yerli KİV çox yazıb.

Ən ilginci isə odur ki, həmin məlumatlar rəsmi şəkildə təsdiqlənməmişdi, ancaq təkzib də edilməmişdi...

***Sənan Mirzə***

# AMEA-nın bəzi institut direktorları həyəcan içində

## Akademiyanın böyük institutlarında Hesablama Palatasının yoxlamaları başlayacaq

***Hesablama Palatası Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) böyük institutlarında yoxlamalar aparmağa hazırlaşır. Bu barədə qəzetimizə AMEA-dakı mənbələrdən bildirilib.***

Qeyd edilir ki, hələlik audit tədbirlərinin qurumun Mərkəzi Aparatında da həyata keçirilməsi nəzərdə tutulmur.

Yoxlamaların büdcəsi daha böyük olan institutları əhatə edəcəyini deyən mənbələr prosesə konkret nə vaxt start veriləcəyi barədə bilgi sahibi olmadıqlarını vurğulayıblar.

Qeyd edək ki, bu il aprelin 1-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib. İclasda Akademiyanın növbəti Ümumi yığıncağının bu il aprelin 22-də keçirilməsi qərarlaşdırılıb. Ümumi yığıncaqda AMEA-nın 2021-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti ilə bağlı elmi bölmələrin hesabatının dinlənilməsi nəzərdə tutulur.

Mümkündür ki, Hesablama Palatasının Elmlər Akademiyasının iri institutlarındakı audit yoxlamaları da məhz ümumi yığıncaqdan sonra başlasın.

Xatırladaq ki, bu ilin fevralında Ramiz Mehdiyev AMEA prezidenti vəzifəsindən gedib. Hazırda həmin vəzifənin müvəqqəti icrası qurumun birinci vitse-prezidenti Arif Həşimova həvalə olunub.

Aprelin 22-də keçiriləcək Ümumi yığıncaqda Akademiyanın yeni prezidentinin seçilməsi gözlənilir.

Yeri gəlmişkən, əvvəlki illərdə Hesablama Palatasının AMEA-da apardığı yoxlamalar zamanı ciddi pozuntular aşkarlanıb.



Məsələn, ötən il Akademiyanın maliyyə tutumu böyük olan Fizika İnstitutunda saysız-hesabsız nöqsanlar üzə çıxarılmışdı. Məlum olmuşdu ki, dövlət büdcəsindən ayrılmış vəsaitlərin icra səviyyəsi yüksək olsa da, il ərzində dövlət vəsaitlərinin maliyyələşmə və icra məbləğləri arasında uyğunsuzluqlar müşahidə edilib, xərclərin icrası zamanı 6 734 manat məbləğində vəsait qüvvədə olan vahid büdcə təsnifatının müəyyən etdiyi iqtisadi təsnifat kodu dəyişdirilməklə icra olunub;

auditin əhatə etdiyi dövrdə çalışanların sayı və vəzifələri təsdiq olunmuş ştat cədvəlinə uyğun olsa da, ixtisas dərəcələrinə düzgün riayət edilməməsi səbəbindən 18 045 manat, iş davamiyyəti qeydə alınmayan əməkdaşlara 329 887 manat, yaranmış qənaət hesabına düzgün olmayaraq əlavələrin verilməsi səbəbindən 86 593 manat, elmi proqram üzrə İnstitutun smetasında nəzərdə tutulmuş vəsaitlər hesabına yalnız əmək funksiyalarını yerinə yetirən əməkdaşlara təkrar ödəniş aparılması nəticəsində 25 800 manat məbləğində artıq vəsait ödənilib;

ezamiyyə qaydalarına və xərc normalarına düzgün əməl edilməməsi səbəbindən xarici və ölkədaxili ezamiyyə ilə bağlı vəsaitlərin icrası zamanı 1 304 manat məbləğində vəsaitin artıq ödənilməsinə yol verilib;

dövlət satınalmalarının keçirilməsi zamanı yol verilmiş nöqsanlar satınalma prosesinin bütün mərhələlərini əhatə edib, bir sıra prosedur pozuntuları ilə yanaşı vəsaitlərin satınalma keçirilmədən icra olunmasına da yol verilib və s.

Hətta Hesablama Platası adıçəkilən institutda malların (işlərin və xidmətlərin) satınalma prosesində vəsaitlərin satınalma keçirilmədən icrası halları ilə bağlı inzibati xətanın müəyyən edilməsi məqsədilə Baş Prokurorluğa müraciət eləmişdi.

Bu və bənzər pozuntulara son illərdə AMEA-da aparılan yoxlamaların böyük qismində rastlanıb.

Yeni təftişlərin hansı qanunsuzluqları ortaya çıxaracağını isə zaman göstərəcək...

***Toğrul Əliyev***

# "Azərsu" ASC elektron xidmətlər sistemini təqdim edir

***"Azərsu" ASC tərəfindən vətəndaşlara göstərilən müştəri xidmətlərində operativliyin, şəffaflığın və səmərəliliyin təmin edilməsi məqsədilə yeni elektron xidmətlərin yaradılması istiqamətində zəruri tədbirlər davam etdirilir.***

"Unikal" xəbər verir ki, "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq elektron xidmətlərdən istifadə imkanları genişləndirilir.

2012-ci ildən başlayaraq "Azərsu" ASC tərəfindən bu sahədə zəruri tədbirlər həyata keçirilərək elektron xidmətlərin əhatə dairəsi və istifadə sayı ildən-ilə artır. 2022-ci ilin yanvar-mart aylarında vətəndaşlar tərəfindən müxtəlif elektron xidmətlərlə bağlı 173 min müraciət qeydə alınaraq icraya yönləndirilib. Ən çox müraciət "Su borcunun internet vasitəsilə öyrənilməsi", "Elektron müraciət" və "Elektron faktura" xidmələri üzrə qeydə alınıb.

Ümumilikdə xidmətlər istifadəyə veriləndən indiyədək vətəndaşlar tərəfindən 1 milyon 847 min müraciət edilib.

Vətəndaşlar www.e-gov.az Elektron Hökumət Portalı və www.azersu.az saytı vasitəsilə xidmətlərdən yararlana bilərlər. Elektron xidmətlər vətəndaşların və xidmət təşkilatlarının işini sadələşdirir və asanlaşdırır. Vətəndaşlar bu xidmətlərdən istifadə etməklə əlavə vaxt itkisi və nəqliyyat xərcləri ilə qarşılaşmırlar.

Hazırda "Azərsu" ASC tərəfindən 19 adda elektron xidmət göstərilir:

1. Su borcunun internet vasitəsilə öyrənilməsi
2. Su borcunun internet vasitəsilə ödənilməsi
3. Abonent məlumatlarının dəyişdirilməsi
4. İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin alınması
5. "Su təchizatı və tullantı sularının axıdılması xidmətləri"nə dair abonentə aid məlumatların verilməsi
6. "Su təchizatı və tullantı sularının axıdılması xidmətləri"ndən istifadəyə görə borcun olmaması haqqında arayış
7. "Su sayğaclarının təmiri və yaxud nasaz sayğacların dəyişdirilməsi müraciəti"
8. "Su sayğaclarının plombunun dəyişdirilməsi müraciəti"
9. "Su təchizatı və tullantı sularının axıdılması sistemində baş vermiş qəzaya dair müraciət"
10. "Elektron müraciət"
11. "Əhali qrupu üzrə istehlakçılara su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair son 12 ay üzrə faktura və ödəniş məlumatlarının verilməsi" elektron xidməti
12. "Əhali qrupuna aid olan yeni istehlakçının qeydiyyata alınması"



13. "Əhali qrupu üzrə istehlakçıların sayğac göstəricilərini təqdim etməsi və hesab fakturanın formalaşdırılması"
14. "Su nümunələrinin yoxlanılmasına dair müraciət"
15. "Borcun araşdırılması üzrə müraciət"
16. "Su sayğaclarının quraşdırılması müraciəti"
17. "Su təchizatı və tullantı sularının idarə olunması xidmətinin müvəqqəti dayandırılması və bərpası müraciəti"
18. "Abonentə aid ünvan məlumatlarının dəqiqləşdirilməsi"
19. "Elektron faktura"



# Zaxarova erməni deputatların Qarabağa buraxılmamasından danışdı

***Erməni deputatların Qarabağa səfəri sülhməramlılarla razılaşdırılmayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

"Rusiya sülhməramlı kontingenti ciddi şəkildə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli Bəyanatının müddəalarına uyğun hərəkət edir. Bu səfər əvvəllər sülhməramlı komandanlığı ilə razılaşdırılmayıb. Rusiya Federasiyası hesab edir ki, sülhməramlıların 9 noyabr 2020-ci il tarixli bəyanatın müddəalarına zidd olduğu iddia edilən hərəkətləri haqqında deyilənlər reallığa uyğun gəlmir. Rusiya tərəfi həm sülhməramlıların məsuliyyət zonasında, həm də Ermənistan-Azərbaycan sərhədinin müəyyən hissələrində baş vermiş insidentləri nəzərə alaraq, hər iki tərəfin regionda vəziyyəti gərginləşdirə biləcək addımlardan çəkinəcəyini gözləyir",- XİN rəsmisi bildirib.

Qeyd edək ki, aprelin 12-də müxalifətin "Hayastan" və "Mənim şərəfim var" fraksiyaları qanunverici orqanın növbəti plenar iclasını boykot edəcəklərini bəyan ediblər və Qarabağa səfər etmək istəyiblər. Amma rus sülhməramlıları onları Qarabağa buraxmayıb.

# Büdcəyə vergi daxilolmaları artıb

***2022-ci ilin yanvar-mart aylarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 2 milyard 802,2 milyon manat vergi daxil olub, proqnoza 123,8% əməl edilib.***

Xidmətdən "Unikal"a verilən məlumata görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi daxilolmaları 34,4% faiz və ya 716,5 milyon manat artıb.

Qeyri-neft-qaz sektorundan daxilolmalar 2 milyard 249,4 milyon manat olub, proqnoza 128,6% əməl edilib. Dövlət büdcəsinə proqnozdan əlavə 499,8 milyon manat vəsait daxil olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 48,9% və ya 738,6 milyon manat artıb.

Qeyri-neft-qaz sektorunun özəl bölməsi üzrə cəmi vergi daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 47,9 faiz artaraq 1 milyard 699,5 milyon manat təşkil edib.

Regionlar üzrə daxilolmalar 262,2 milyon manat olmaqla, proqnoz 114,4 faiz icra edilib, ötən ilin eyni dövrü ilə müqayisədə bu mənbədən daxilolmalar 19,2 faiz artıb.

Ödənilən vergilərin 80,3 faizi qeyri-neft-qaz sektorunun, 19,7 faizi neft-qaz sektorunun payına düşüb.



## “Ərzaqlıq buğda ilə təminatımız diqqət mərkəzində olmalıdır” - Əhliman Əmiraslanov

***“Prezident İlham Əliyevin sədrliyi ilə 12 aprel tarixində keçirilmiş cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə cənab Prezidentin səsləndirdiyi fikirlər sosial-iqtisadi vəziyyət və perspektivlərlə, şəhid ailələrinə və müharibə iştirakçılarına dövlət qayğısı, bürokratik əngəllərin aradan qaldırılması, maliyyə-nizam-intizamının təmin edilməsi, investisiya mühitinin daha da sağlamlaşdırılması, məmur-vətəndaş təmaslarının minimuma endirilməsi, işğaldan azad olunmuş ərazilərdəki vəziyyət və fəaliyyətlə, ölkəmizin xarici siyasəti ilə bağlı strateji hədəflətinə eyni zamanda, qarşıdakı dövr üçün müəyyənləşdirilən hədəflərə bir daha işıq saldı”.***

Bu fikirləri Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov səsləndirib. O bildirib ki, Prezident İlham Əliyev növbəti dəfə nümayiş etdirdi ki, vətəndaşın rifahının yüksək təmin olunması onun fəaliyyətinin mərkəzində dayanır:

“Prezidentin strateji yanaşması məhz ondan ibarətdir ki, xarici siyasətin keçərli olması, tam müstəqil siyasət yürütmək imkanlarının genişləndirilməsi hər şeydən öncə iqtisadi müstəqillikdən asılıdır. Müşavirədə də qeyd olunduğu kimi postmünaqişə dövrünün birinci ilinin nəticələri deməyə əsas verir ki, qarşımızda duran vəzifələr icra edilmişdir. Cari ilin birinci rübünün yekunları bütövlükdə 2022-ci ili də uğurla başa vuracağımıza böyük əsaslar yaradır. Hər bir ölkənin inkişafında, hədəflərə uğurla nail olunmasında əsas amil olan iqtisadi inkişafa nəzər salsaq Azərbaycanın ilin birinci rübündə əldə etdiyi sosial-iqtisadi göstəricilərin qənaətbəxş olduğunu görərik. Bu müddətdə ümumi daxili məhsul 6,8 faiz, qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faizdir. Qeyri-neft sənaye istehsalında artım 18 faizdən çoxdur. Bu rəqəmlər ölkədə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsindən, həmçinin neft-qaz sektorundan asılılığın azaldılmasından xəbər verir.

2019-cu ildən dünyanı bürüyən koronavirus infeksiyası ilə mübarizə tədbirlərinin gücləndirildiyi zamanlarda Azərbaycanın iqtisadi artımı ilə diqqətdə olması, 30-dan artıq ölkəyə humanitar və maddi yardım göstərməsi kimi mühüm addımlar imkanlarımızın təqdimatında əhəmiyyətli rol oynayır. Dövlət başçısı İlham Əliyev müşavirədə birinci rübün yekunlarına istinadən bildirmişdir ki, “Hazırda dünya, əgər belə demək mümkündürsə, postpandemiya dövrünə qədəm qoyur və bəlkə də “postpandemiya” sözünü işlətmək bir qədər tezdir. Eyni zamanda, toqquşmalar, müharibələr alovlanır və gələcəkdə sabitliyin təmin edilməsi ilə bağlı müxtəlif fikirlər var. Dünyada ərzaq qıtlığı ola bilər. Hazırda dünyada ərzaq məhsullarının qiymətləri kəskin artır. Bu proses bir neçə ay bundan əvvəl başlamışdır.

Əlbəttə ki, Rusiya-Ukrayna müharibəsi bunu daha da sürətləndirib, xüsusilə nəzərə alsaq ki, Rusiya və Ukrayna dünyada aparıcı taxıl ixracatçıları arasındadırlar və digər ərzaq məhsullarını dünya bazarlarına ixrac edirlər. İndi artıq təbii qıtlıq hiss olunur və hiss olunacaq. Bu səbəbdən ərzaqlıq buğda ilə təminatımız diqqət mərkəzində olmalıdır.” Bir sözlə, hər zaman verilən vədin, irəli sürülən təşəbbüslərin gerçəkliyə çevrildiyinin şahidi olan xalqımız bütün planların real həyatda öz əksini tapacağına əmindir”.

# MİDA-nın güzəştli mənzilləri ətrafında növbəti qalmaqal

## 5 saniyədə satılan (!) 452 evlə bağlı dindirmələrin başlandığı deyilir, ilginc iddialar var

***Xəbər verildiyi kimi, Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) bu yaxınlarda Yasamal Yaşayış Kompleksində növbəti güzəştli mənzil satışı da qalmaqalla müşahidə edildi. Səbəb isə nə az, nə çox, 442 mənzilin bir neçə saniyədə satılması idi.***

Bu isə mənzil seçimində iştirak edən 9 minə yaxın müraciətçinin mütləq çoxluğunun etirazına səbəb oldu və seçim prosesinin şəffaf keçirilmədiyinə dair fikirlər yayıldı. Nəinki sadə vətəndaşlar, elə ekspertlərdən tutmuş bəzi millət vəkillərinəcən cəmiyyətin böyük bir hissəsi satış prosesinin obyektivliyi məsələsində ciddi suallar, şübhələr olduğuna dair qənaətlərini ortaya qoydular.

Ən ilginc məqamlardan biri isə güzəştli mənzillərin bu qədər qısa zamanda satılmasının ”xüsusi proqram təminatından” istifadə ilə mümkün olduğuna dair fikirlər idi. Qeyd edilirdi ki, ”Vision”, ”Mousereader” kimi proqramlardan istifadə edilib və bunun üçün xüsusi “proqramçı”lar tutulub.



Mütəxəssislər də deyiblər ki, əgər mənzillər 5-6 saniyəyə seçilirsə, deməli həmin adamlar hansısa ”proqramdan” istifadə ediblər.

Yola salmaq üzrə olduğumuz həftə yerli media, bir az da konkretləşdirsək, ”musavat.com” saytı yazdı ki, məhz bu kimi iddialardan sonra araşdırmalara başlanıb. Nəticədə indiyədək yüzlərlə insanın xüsusi proqramlardan istifadə etdiyi üzə çıxıb.

Saytın məlumatına görə, artıq ev alan şəxslər arasında xüsusi proqramlardan istifadə etmiş şəxslər də müəyyən edilib və onlar Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırılaraq dindirilir.

Lakin həmin məlumat rəsmi olaraq təsdiqlənməyib.

Bu mövzuda daha bir ilginc iddia isə ondan ibarətdir ki, xüsusi “proqramçı”lara mənzil qazanmaq üçün 10-15 min manat civarında və ya daha artıq pul ödəyən şəxslər də var, onların bir çoxu aldadılıb. Deyilənə görə, bir qrup “proqramçı” pulları alaraq aradan çıxıb. İndi həmin vətəndaşlar da zərərçəkmiş kimi hüquq-mühafizə orqanlarına üz tutublar.

Qeyd olunur ki, araşdırmalar davam edir.

Vurğulamaq yerinə düşər ki, güzəştli mənzillərin satışı prosesindəki qeyri-obyektivliyə və ədalət prinsipinin pozulmasına dair ittihamları MİDA qəbul etmir. Qurum bildirir ki, həmin mənzillərin cəmi bir neçə saniyə ərzində satıldığı barədə fikirlər əsassızdır.

Belə ki, agentlik güzəştli mənzillərin satışının 13 dəqiqədən artıq çəkdiyini bəyan edib.

Onu da deyək ki, güzəştli mənzillərlə bağlı araşdırmaların aparılmasına ehtiyac duyulan daha bir ciddi məqam var. Məsələ burasındadır ki, əmlak alqı-satqısı saytları MİDA-dan aldığı evləri satışa çıxaranların, kirayə vermək istəyənlərin elanları ilə doludur. Bu isə kimlərinsə güzəştli mənzilləri şəxsi qazanc vasitəsinə çevirdiyini göstərir. Belə şübhələr yaranır ki, bəziləri ehtiyacları olmadığı halda həmin mənzilləri fərqli məqsədlərlə, qazanc niyyətilə əldə edir, sonra isə onları kirayəyə verərək özlərinə gəlir mənbəyi yaradırlar.

Onu da vurğulamaq yerinə düşər ki, əşyasız, sadəcə mətbəx mebeli ilə təmin edilmiş, heç vaxt yaşayış olmamış bu mənzillərin kirayə qiymətləri aylıq 300 manatdan başlayır. Şəhərin mərkəz hissələrində yerləşdiyinə görə həmin sosial evləri kirayə götürmək istəyən müştərilər isə kifayət qədər çoxdur.

Ekspertlərin fikrincə, bu hallarla bağlı da araşdırmaların aparılması və məsələyə hüquqi qiymət verilməsi vacibdir.

Eyni zamanda MIDA-nın da sözügedən halların yaşanmaması üçün önləyici tədbirlər görməsinin zəruriliyinə diqqət çəkilir. Bildirilir ki, normal halda Yasamal rayonunda 3 otaqlı evlərin qiyməti 130-150 min manat arasında dəyişir. Lakin güzəştli evlərdə bu qiymət dəfələrlə az - 50-60 min manat civarındadır. Bir otaqlı evlər isə 20-25 min manata əldə olunur. Bu qədər kəskin fərqin olması da evi olanları belə, müxtəlif yollarla layihədən istifadə etməyə, yeni ev almağa şirnikləndirir . Bu məqamı nəzərə alaraq elə şəffaf sistem qurulmalıdır ki, güzəştli mənzil layihəsi həqiqətən də belə evlərə ehtiyac duyanlara çatsın, nəinki hansısa işbazlara!

Sadalanan çatışmazlıqlar aradan qaldırılmayacağı təqdirdə isə MİDA-nın növbəti satış proseslərində də qınaq hədəfinə çevrilməsi qaçılmazdır. Agentlik xüsusilə son prosesdəki qalmaqallı nüanslar üzərində ciddi düşünməli, növbəti satış zamanı həmin prosesdən nəticə çıxarmalıdır. Əks təqdirdə mənzil üçün müraciət edənlərin səsləndirdikləri fikirlərin doğruluğu bir daha təsdiqlənəcək. Belə məlum olacaq ki, ədalətsiz seçim nəticəsində proses sadə vətəndaşlar üçün əngələ çevrilir. Nəticədə seçim kriteriyalarına cavab verən, ümidini güzəştli mənzillərə bağlayan vətəndaşlar yenə də evsiz qalacaqlar...

***Murad İbrahimov***

## 6.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Təhsildə gender bərabərliyi pozulur

## Qızların təhsildən yayınması erkən nikah problemini aktuallaşdırıb



***Orta məktəblərdə qızların təhsildən yayınması ən çox müzakirə olunan məsələlərdəndir. Təhsildə gender problemi aktual olaraq qalır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-2021-ci ildə dövlət ümumtəhsil məktəblərində təhsil alan qızların bütün siniflərdə ümumi sayı 762 429 olub. Bundan 11 il əvvəl 2010-2011-ci ildə isə bu rəqəm 611 698 olub. Dövlət Statistika Komitəsinin statistik məlumatlarına əsasən regionlardakı vəziyyətə nəzər salaq.***

Şəki-Zaqatala iqtisadi rayonunda 10-11-ci sinifdə təhsil alanların ümumi sayı 20 121 olub ki, onlardan 8 641-ni qızlar təşkil edib. Şərqi Zəngəzur iqtisadi zonasında qeyd olunan rəqəm müvafiq olaraq 10169 və 4 410-dur. Şirvan-Salyan iqtisadi rayonunda həmin rəqəm müvafiq olaraq 5 454 və 2123-dür. Dağlıq Şirvan iqtisadi rayonunda təhsilalanların ümumi sayı 6011, qızların sayı 2710-dur. Gəncə-Daşkəsən iqtisadi rayonunda qeyd olunan göstərici müvafiq olaraq 17 450 və 7 899 olub. Qarabağ iqtisadi rayonunda həmin rəqəm 17 829 və 7 767 olub. Quba-Xaçmaz iqtisadi rayonunda rəqəmlər müvafiq olaraq 32 803 və 12763-dür. Lənkəran-Astara iqtisadi rayonunda ümumi təhsil alan 7119 nəfərdən 3 446-nı qızlar təşkil edib. Mərkəzi Aran iqtisadi rayonunda 14 816 şagirdin 6 642-si qızlardır. Mil-Muğan iqtisadi rayonunda 6467 şagirddən 3100-ü qızlardır. Statistikaya görə, xüsusən də 5-9-cu siniflərdə qızların davamiyyətində, buraxdıqları dərs günlərinin sayında artım var. Dövlət Statistika Komitəsinin sonuncu hesabatında qeyd olunur ki, ölkədə 15-17 yaşlı qızlar tərəfindən dünyaya gətirilən diri körpələrin sayı 1917 olub, 1219 belə hal kənd yerlərində baş verib. Bu isə ən azı 1917 qızın təhsildən yayındığını deməyə əsas verir.

Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova deyir ki, qızların təhsildən yayınmasına təsir edən əsas amil erkən nikah faktorudur. Onun sözlərinə görə, erkən nikah amili qızların təhsildən yayınması ilə yanaşı onların məişət zorakılığı qurbanına çevrilməsinə də gətirib çıxardır. M. Zeynalova hər il Birliyin sığınacağına xeyli sayda erkən nikah qurbanı olmuş qadının müraciət etdiyini söyləyir. Onun sözlərinə görə, erkən ailə qurmuş qızlar rəsmi nikaha daxil olmadıqlarından onların hüquqlarını qorumaq, dünyaya gətirdikləri uşağa aliment almaq çətin olur: Sığınacağa müraciət edən qadınların və uşaqların sənədləri olmur. Çünki, bizim sığınacağa gələn qadınların çoxunun rəsmi nikahı yoxdur. Onlar vətəndaş nikahında yaşayaraq dünyaya uşaq gətirirlər. Ona görə ki, çoxu erkən nikaha daxil olur. Bu zaman biz məcbur oluruq ki, uşaqların atalığını müəyyən edək. Bu istiqamətdə məhkəmə işləri başlayır. Atalıq müəyyən olunduqdan sonra uşaqlara doğum şəhadətnaməsi çıxardılır, alimentin verilməsi tələb edilir".

Qeyd edək ki, statistik rəqəmlər də erkən yaşda ana olan qızların olduğunu sübut edir.

2020-ci ildə 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı 1917 nəfər, 2019-cu ildə isə 2320 olub. 2020-ci ildə isə 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı 1917 nəfər təşkil edib. Onlardan Aran iqtisadi rayonu üzrə 698, Gəncə-Qazax iqtisadi rayonu üzrə 325, Lənkəran iqtisadi rayonu üzrə 306 və Dağlıq Şirvan iqtisadi rayonu üzrə 109 nəfər qeydə alınıb. Ən az göstərici isə Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə 40 nəfər olmaqla qeydə alınıb. 2020-ci ildə ümumilikdə 126 571 uşaq doğulub. Onlardan 67 407-si oğlan, 59 164-ü qızdır. Bu uşaqlardan 108 857-si (58 219 oğlan, 50 638 qız) rəsmi nikahlardan, 17 714-ü isə (9 188 oğlan, 8 526 qız) qeyri-rəsmi nikahlardan doğulub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən isə bildirildi ki, Komitə erkən nikahın daha çox qeydə alındığı rayonlarda mütəmadi icma səviyyəsində görüşlər keçirir. Erkən nikah və qız uşaqlarının təhsildən yayınması hallarının qarşısının alınması məqsədilə icma səviyyəsində belə görüşlərdən biri ötən gün Komitə və Sabunçu rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Nardaran və Bilgəh qəsəbələrində təşkil edilib. Həmçinin Ağdam, Saatlı, Sabirabad, Hacıqabul, Goranboy, Göygöl, Zaqatala, Zərdab, Qəbələ, İsmayıllı, Şüvəlan Uşaq və Ailələrə Dəstək Mərkəzləri regionlarda erkən nikahların fəsadları mövzusunda maarifləndirmə tədbirləri keçirib. Tədbirlərdə mərkəz əməkdaşları erkən nikah problemi ilə bağlı təqdimatlar edərək, bu problemin qarşısının alınması istiqamətində görülən işlərdən bəhs ediblər. Qeyd olunub ki, erkən yaşda qurulan nikahlar yeniyetmələrin sağlamlığına, gələcək həyatlarına mənfi təsir göstərir və bu da öz növbəsində sonradan ailədaxili münaqişələrin yaranmasına gətirib çıxarır. Erkən nikahlar əksər hallarda qız uşaqlarının təhsildən yayınmasına, cəmiyyətdən təcrid olunmasına, fiziki və cinsi zorakılığa məruz qalmasına səbəb olur.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Kamran Əliyev Daşkənddə Heydər Əliyevin büstünü ziyarət etdi

***Baş prokuror Kamran Əliyevin Özbəkistana rəsmi səfəri çərçivəsində nümayəndə heyəti tərəfindən Daşkənddəki səfirliyində xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.***

Bu barədə "Unikal"a Baş Prokurorluqdan məlumat verilib.

Səfərin yekununda iki ölkənin prokurorluq orqanları arasında əlaqələrin bundan sonra daha intensiv şəkildə, o cümlədən Türk Dövlətləri Təşkilatının Baş Prokurorları Şurası çərçivəsində təlim tədris səfərləri formatında davam etdirilməsi qərara alınıb.

## Anar Kərimov Qubada vətəndaşları qəbul edir

***Mədəniyyət naziri Anar Kərimov aprelin 14-də Quba rayonuna səfər edib.***

"Unikal" xəbər verir ki, mədəniyyət naziri və icra başçısı Ziyəddin Əliyev Quba rayon Heydər Əliyev Mərkəzinə gəliblər. Mərkəzin fəaliyyəti ilə tanışlıq zamanı bildirilib ki, dördmərtəbəli bina 2011-ci ildə inşa edilib. Mərkəz ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsi və təbliği işini həyata keçirir.

Anar Kərimov və Ziyəddin Əliyev Bəşir Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzinə gələrək burada yaradılan şəraitlə tanış olublar. Mərkəz tərəfindən hazırlanmış "Quba - multikultural diyar" kitabının təqdimatı keçirilib. Həmçinin "Şuşa İli" münasibətilə "Şuşamı tərənnüm edirəm" adlı multikultural layihənin təqdimatı olub, folklor qrupunun çıxışı dinlənilib.

Mədəniyyət naziri və icra başçısı daha sonra Quba rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanasına baş çəkiblər. Məlumat verilib ki, 1932-ci ildə yaradılan kitabxana bu il 90 illiyini qeyd edir.

Nazir Quba şəhər uşaq musiqi və incəsənət məktəblərinə baxış keçirərkən tədris ocaqlarının fəaliyyəti barədə ətraflı məlumat alıb, təhsilin keyfiyyətinin yüksəldilməsi, istedadlı uşaq və gənclərin dəstəklənməsinin əhəmiyyətini və vacibliyini diqqətə çatdırıb, bununla əlaqədar müvafiq göstərişlər verib.

Mədəniyyət naziri Qubada XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidələri olan Ərdəbil məscidi və Cümə məscidini də ziyarət edib.

Nazir Anar Kərimovun Quba rayonuna səfəri davam edir.

## Vergi ödəyicilərinin sayı açıqlanıb

***Cari il aprel ayının 1-nə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 2,7 faiz artaraq 683.231 təşkil edib.***

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən Modern.az-a verilən məlumatda bildirilib.

Qeyd edilib ki, hesabat dövründə aktiv ƏDV ödəyicilərinin sayı 3,2 faiz artıb və 35.807 təşkil edib. Aktiv obyektlərin (təsərrüfat subyektlərinin) sayı isə ilin əvvəli ilə müqayisədə 0,7 faiz artaraq 184.610 təşkil edib.

# DİM: 44 mindən çox şagird imtahan verəcək



***Dövlət İmtahan Mərkəzi 16-17 apreldə ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçirəcək.***

Mərkəzdən "Unikal"a verilən məlumata görə, imtahanlar saat 11:00-da başlanır. İmtahanların başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

İştirakçılar imtahana tibbi maska ilə gəlməli və onlardan düzgün (burun, ağız və çənə nahiyəsini tam örtməklə) istifadə etməlidirlər. Maskanı çıxarmaq qadağandır və bütün proses (buraxılış rejimi, imtahan müddəti, imtahan binasının tərk edilməsi) boyu istifadə olunmalıdır.

Şagirdlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

-İmtahana buraxılış vərəqəsi;

-Sağlamlıq haqqında bəyannamə (buraxılış vərəqi ilə birlikdə çap edirsiniz və imzalayırsınız. İmtahana buraxılış vərəqəsi şagirdin özündə saxlanıldığı, sağlamlıq haqqında bəyannamə isə imtahan nəzarətçisinə təhvil verildiyi üçün hər iki sənəd ayrıca vərəqdə çap olunmalıdır);

- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

-Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahanda iştirak edəcək şagirdlər "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə DİM-in saytından aprelin 7-dən etibarən çap edib götürə bilirlər.

İmtahanlar 16-17 aprel tarixlərində respublikanın 23 şəhər və rayonunda keçiriləcək.

Xatırladaq ki, imtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 192 imtahan binası, 3400 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 192 ümumi imtahan rəhbəri, 550 imtahan rəhbəri, 4219 nəzarətçi-müəllim, 400 buraxılışı rejimi əməkdaşı (mühafizə), 192 bina nümayəndəsi ayrılıb.

Aprelin 16-da keçiriləcək imtahanda 23 107, aprelin 17-də keçiriləcək imtahanlarda isə 21 749 nəfər olmaqla, ümumilikdə 44 856 şagirdin iştirakı nəzərdə tutulur.

İmtahanlarda 8 nəfər fiziki məhdudiyyətli (I qrup gözdən əlil, eşitmə əngəlli və digər) şagird də iştirak edəcək. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında ayrıca zallar ayrılıb, gözdən əlillər üçün tapşırıqların oxunması, cavab vərəqinin doldurulması və s. işlər üçün fərdi nəzarətçilər təyin edilib. Həmçinin eşitmə əngəlli şagirdlər üçün onların dinləmə ilə bağlı qüsurları nəzərə alınaraq xüsusi test kitabçaları hazırlanıb. Hərəkət məhdudiyyətli şagirdlərin bina və zala daxil olması və rahat şəkildə hərəkəti üçün də xüsusi şərait yaradılıb.

Hazırda imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə onlayn şəkildə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilib, imtahan zallarında şagirdlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

İmtahana 1 gün qalmış təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə təkrar baxış da keçirilir və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə verilir.

Ehtiyat tədbirləri çərçivəsində imtahan binasına daxil olan iştirakçılarının məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılacaq, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunacaqdır. İmtahana bədən hərarəti 37ºC-dən aşağı olan şəxslər buraxılır.

İmtahan iştirakçıları imtahan binasına daxil olmaq üçün yoxlamadan keçərkən sosial məsafəni saxlamaqla şəxsiyyətini təsdiq edən sənədin üz tərəfini DİM əməkdaşının görəcəyi şəkildə ona tərəf uzatmalı və müvəqqəti olaraq maskasını aşağı salaraq üzünü göstərməlidir.

DİM tərəfindən pandemiya şəraitinin tələblərinə uyğun imtahanların keçirilməsi qaydaları ilə bağlı maarifləndirici videoçarx və davranış qaydaları ilə buradan tanış ola bilərsiniz.

# Əlaçı və faal tələbələrə təqaüd təqdim edildi

***Aprelin 8-də 2021-2022-ci tədris ilinin qış imtahan sessiyasının nəticələrinə görə əlaçı və həmkarlar ittifaqı fəalı olan ali məktəb tələbələrinə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin (ATİAHİ RK) adlı təqaüdünün təqdim edilməsi mərasimi keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə ATİAHİ Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxış edib. Sədr qeyd edib ki, ATİAHİ Respublika Komitəsinin adlı təqaüdü 1995-ci ildə təsis edilib. O vaxtdan bu günə qədər ali təhsil müəssisələrində qış və yay sessiyasının nəticələrinə görə uğur əldə etmiş 2654 nəfər tələbə bu təqaüddən yararlanıb: "Bu gün isə daha 65 tələbəyə bu təqaüd təqdim ediləcəkdir. Bu təqaüdün verilməsində məqsəd tələbələrdə elmə, təhsilə marağın artırılması və Azərbaycanda həyata keçirilən uğurlu gənclər siyasətinə dəstək verməkdir. Qeyd edim ki, tələbələrə adlı təqaüdün verilməsi ATİAHİ Respublika Komitəsinin gənclərlə bağlı təşkil etdiyi tədbirlərdən birini təşkil edir. Hər il gənclərin sosial vəziyyətinin yaxşılaşdırılması, gənclər arasında kütləvi bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi, istedadlı gənclərin aşkara çıxarılması, onların istedad və qabiliyyətlərinin inkişafı üçün şəraitin yaradılması, gənclərin elmə, təhsilə marağının artırılması, xalqımızın tarixinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə edilməsi, hərbi vətənpərvərlik tərbiyəsi işinin aparılması ilə bağlı mühüm tədbirlər həyata keçirilir. Bizim bu işləri görməkdə məqsədimiz siz gənclərin asudə vaxtını səmərəli keçirmək, pis vərdişlərdən uzaq olmaq, elmə, təhsilə maraq yaratmaq, dövlətimiz tərəfindən həyata keçirilən dövlət gənclər siyasətinə dəstək olmaqdır".



Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətindən danışan S.Möhbalıyev bildirib ki, ölkədə gənclərin sağlam ruhda böyüməsi və layiqli vətəndaş kimi yetişməsi üçün ardıcıl və sistemli tədbirlər həyata keçirilir.

2022-ci ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən gənclərin inkişafına istiqamətlənmiş daha bir sənədə imza atılmasını, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın qəbul olunmasını xatırladan S.Möhbalıyev qeyd edib ki, bu proqramın icrası nəticəsində gənclərimizin inkişafı təmin ediləcək: "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 sentyabr tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə hazırlanmış bu Dövlət Proqramının əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, Azərbaycan Respublikasının dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir. Bu Dövlət Proqramının icrası müddətində ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcək. Ümumiyyətlə gənclərlə bağlı bu addımların atılmasında əsas məqsəd müasir, müstəqil Azərbaycanın inkişafında gənclərin potensialından səmərəli istifadə etməkdir. Gənclər siyasəti ölkədə həyata keçirilən inkişaf siyasətinin mühüm tərkib hissəsidir".

S.Möhbalıyev əlavə edib ki, bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin fəaliyyəti üçün dövlətin yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin aparıcı qüvvəsinə çevrilib. Gəncliyimiz ölkəmizin gələcəyi uğrunda inamlı addımlar atır: "Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Biz 44 günlük Vətən Müharibəsində bunun əyani şahidi olduq. Rəşadətli Azərbaycan Ordusunun sıralarındakı qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan bu Şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu. Gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak etdilər. İnanırıq ki, Azərbaycanda uğurlu gənclər siyasəti bundan sonra da davam etdiriləcək, gənclərimiz dövlətimizin başçısı cənab İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin inkişafına öz layiqli töhfələrini verəcəklər. Bir daha hər birinizi təbrik edir, təhsilinizdə və şəxsi həyatınızda uğurlar arzulayıram".

Sonra 2021-2022-ci tədris ilinin qış imtahan sessiyasının nəticələrinə görə əlaçı və həmkarlar ittifaqı fəalı olan 65 nəfər ali məktəb tələbələrinə ATİAHİ Respublika Komitəsinin adlı təqaüdü təqdim edilib.

Tədbirdə çıxış edən tələbələr göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildiriblər.

# Rayonlarda əkin sahələri ilə bağlı tədbirlər görülür

***Füzulidə yeni beton kanallar çəkilir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Füzuli rayonunda əkin sahələrininin suvarma suyu ilə təminatı, o cümlədən su itkisinin minimuma endirilməsi istiqamətində mütəmadi işlər davam edir.***

Bu məqsədlə Füzuli Suvarma Sistemləri İdarəsi tərəfindən kanallar lildən təmizlənir, beton üzlüyə alınır və yeni nov kanallar çəkilir. Suvarma üçün balansda olan 54 ədəd nasos stansiyadan, 745 km olan suvarma arx və kanallardan istifadə olunur. Bu il istismar tədbirləri planına uyğun olaraq 324 km kanalın lildən təmizlənməsi planlaşdırılıb, hal-hazıra kimi artıq 68 km hissəsi lildən təmizlənib. Bundan başqa 626 km uzunluğunda nasos stansiyaların qapalı şəbəkəsində cari təmirə ehtiyacı olan boru kəmərləri və üzərindəki hidro texniki qurğular təmir olunaraq işlək vəziyyətə gətirilib.? Bu il ümumi uzunluğu 261 km olan kollektor-drenaj şəbəkəsindən 40 km hissəsinin də lildən təmizlənməsi nəzərdə tutulub ki, artıq şəbəkənin ? 13 km-dən artıq hissəsi lildən təmizlənib.



Füzuli Suvarma Sistemləri İdarəsi tərəfindən ötən il əsaslı təmir işləri çərçivəsində torpaq məcralı kanallar beton kanallarla əvəzlənib. Bu kanallardan biri də Qurultay kanalıdır ki, həmin kanalın 1000 metri ötən il betonlanıb. Növbəti illərdə də həmin kanalın yerdə qalan hissəsi beton üzlüyə alınacaq. Bunun nəticəsində 600 hektar əkin sahələrinin su təminatı yaxşılaşacaq. ? Bundan başqa idarənin balansında olan 1-aqreqatlı? Haramı-16 nasos stansiyası da əsaslı təmir olunub. Nasos stansiya vasitəsi ilə 118 hektar əkin sahəsinin su təminatının yaxşılaşdırılması nəzərdə tutulub. İdarənin balansında olan 181 ədəd subartezian quyularından suvarma mövsümünün təşkili məqsədi ilə indiyə kimi 3 ədədində cari təmir işləri aparılaraq saz vəziyyətə gətirilib.

Qeyd edək ki, Füzuli Suvarma Sistemləri İdarəsi rayon ərazisində 27200 hektar əkin sahələrinin suvarma suyu ilə təmin olunmasına? xidmət edir. Bu sahələrdə hər il müxtəlif növ kənd təsərrüfatı bitkiləri əkilir.

Sabirabadda da suvarma mövsümünə hazırlıq gedir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, hazırda Sabirabad rayonunda əkin sahələrinin suvarılması aparılır. Bu işlər Sabirabad Suvarma Sistemləri İdarəsi tərəfindən həyata keçirilir. 67210 hektardan artıq suvarılan əkin sahəsinə xidmət edən idarə fermerlərin suya olan tələbatını vaxtında təmin etmək üçün müvafiq tədbirlər görür. Hazırda əkin suvarma mövsümü olmasını nəzərə alan melioratorlar tarlalara vaxtında su verilməsinə çalışır. Artıq idarənin balansında olan 40 min hektardan çox əkin sahəsinin suvarılması təmin edilib. Bura həm taxıl, həm yonca sahələri daxildir. Eləcə də pambıq və bostan bitkilərinin əkiləcəyi sahələrin də arat olunması vaxtında təmin olunur.

Bundan başqa Sabirabad Suvarma Sistemləri idarəsi tərəfindən mövcud su qıtlığı dövründə su itkisinin qarşını almaq və suvarma suyunu su istifadəçilərinə çatdırmaq üçün torpaq kanalların beton kanallarla əvəz edilməsi istiqamətində xeyli işlər görülüb. Bu istiqamətdə həm ötən il, həm də bu il bir neçə layihə icra olunub. Bu işlər gələcəkdə də davam etdiriləcək. Sabirabad rayonunda əsas su mənbələrindən birincisi Kür çayıdır. Kür çayından sahələrə su mexaniki üsul ilə ötürülür. Hazırda Kürdə suyun səviyyəsinin aşağı olması nəzərə alınaraq əlavə su ötürücü nasos stanasiyalar quraşdırılır. Həmin nasos stansiyaları vasitəsi ilə əkin sahələrinin su təminatı daha da yaxşılaşdırılacaq.

Qeyd edək ki, Sabirabad Suvarma Sistemləri İdarəsinin balansında 2 min 310 km-dən artıq uzunluğunda suvarma kanalı, 3 min 45 km uzunluğunda kollektor-drenaj şəbəkəsi mövcuddur. 2021-ci ildə idarə tərəfindən 1161 km suvarma kanalı, 434 km kollektor-drenaj şəbəkəsi lildən təmizlənilib.

Şabranda da suvarma kanalları lildən təmizlənir. Bildirilib ki, kənd təsərrüfatının inkişafı ilk növbədə suvarma suyundan asılıdır. Heç kimə sirr deyil ki, bol məhsuldarlıq əldə etmək üçün sahələrin vaxtında suvarılması vacib şərtdir. Məhz bu məqsədlə Şabranda yeni suvarma mövsümünə ciddi hazırlıq işləri aparılır. Suvarma Sistemləri İdarəsindən verilən məlumata görə, Şabranda 27 min hektar əkinəyararlı torpağı suvarmaq üçün 764 kilometr uzunluğunda təsərrüfatdaxili və təsərrüfatlararası suvarma kanalından istifadə edilir. Sahələrin vaxtında və itkisiz suvarılmasını təmin etmək məqsədi ilə 100 km-dən artıq torpaq kanal beton kanalla əvəz edilib. Həmçinin sahələrin vaxtında suvarılmasını düzgün təşkil etmək məqsədilə su kanalları lil və kol-kosdan təmizlənir. Görülən işlər nəticəsində kanalların ötürücülük qabiliyyəti artırılır ki, bu da su itkisinin qarşısını alır. Kanalların təmizlənməsi işlərinə 12 ədəd ağır texnika cəlb olunub.

Görülən tədbirlərin nəticəsidir ki, təsərüffat sahibləri rahat şəkildə sahələri suvara bilirlər. Bu da öz növbəsində fermerlərə bol məhsul əldə etməyə və sahələrini daha da genişləndirməyə şərait yaradır.

Qeyd edək ki, 2019-cu ildə aparılan melorativ tədbirlərdən sonra Şabranda 9 min hektar sahə əkin dövriyyəsinə cəlb olunub. Əkinə yeni cəlb edilən sahələrin suvarılması məqsədi ilə ərazidə yeni qapalı sistem yaradılıb.

***Hüseyn İsgəndərov***



# Mərhum jurnalistin adı sinif otağına veriləcək - Rəşad haqda film çəkildi

***Aprelin 15-də Füzuli rayonunun Böyük Bəhmənli kənd orta məktəbində mərhum hərbi jurnalist, "Poliqon" ("Azeri Defence") jurnalının təsisçisi və baş redaktoru Rəşad Süleymanovun (1982-2020) anadan olmasının 40-cı ildönümü (14 aprel) münasibətilə tədbir keçiriləcək.***

Kürdəmir Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı, Təhsil Nazirliyinin və "Poliqon" jurnalının dəstəyi ilə keçirilən tədbir çərçivəsində Rəşad Süleymanovun xatirəsinə ithaf olunan fotosərgi təqdim olunacaq.

Sərgidə 702 saylı briqadanın veteranı, hərbi fotoqraf Nurəhməd Vəliyevin Birinci və İkinci Qarabağ müharibəsində Füzuli rayonunda gedən döyüşləri əks etdirən fotoları nümayiş etdiriləcək.

Tədbirdə Füzuli rayon İcra Hakimiyyətinin nümayəndələri, jurnalistlər, veteranlar, dövlət və qeyri-hökumət təşkilatları, ictimaiyyət nümayəndələri iştirak edəcəklər. Tədbir iştirakçılarının çıxışları, məktəblilərin vətənpərvərlik mövzusunda şeirləri dinləniləcək.

Tədbir çərçivəsində Rəşad Süleymanovun adına sinif otağının açılışı olacaq. Rəşad Süleymanovun keçdiyi mənalı həyat yolu və yaradıcılığından bəhs edən "Rəşad xatirələrdə" sənədli filmi nümayiş ediləcək.

Tədbirdən sonra qonaqlarla birgə Rəşad Süleymanovun qəbri ziyarət olunacaq.

Rəşad Süleymanov 1982-ci ildə Füzuli rayonunda anadan olub. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. 1999-2003-cü illərdə müxtəlif mətbuat orqanları ilə əməkdaşlıq edib, ilk dəfə daimi işə "Həftə içi" qəzetində başlayıb.

Orta məktəb illərində hüquqşünas olmaq istəyən R.Süleymanov səhv kodlaşdırma nəticəsində Jurnalistikaya daxil olub. Bu sahəyə marağını isə "Ədalət" qəzetində işləyən yaxın qohumu oyadıb. Bir müddət jurnalist kimi fəaliyyət göstərən R.Süleymanov 2004-cü ildə bu sahədən getməyi qərarlaşdırıb. Ancaq heç xoş olmayan bir hadisənin baş verməsi Rəşad Süleymanovu jurnalistikada qalmağa vadar edib.

"525-ci qəzet", APA İnformasiya Agentliyi və digər mətbuat orqanlarında çalışan mərhum jurnalist ömrünün son illərində təsisçisi olduğu "AzəriDefence" jurnalının baş redaktoru kimi fəaliyyət göstərib. O, həm də hərbi ekspert kimi çıxışlar edib.

Rəşad Süleymanov 38 yaşında koronavirusa yoluxdu. 2020-ci ilin dekabrın 15-də bu xəstəliyə tab gətirə bilməyən hərbi jurnalist vəfat etdi.

Mərhumun 3 övladı qalıb.

# İsmayıllı-Lahıc yolunda uçqun

***Səhər saatlarında İsmayıllı-Lahıc avtomobil yolunun 17-18-ci km-lik hissəsində yolun hərəkət hissəsinə qaya parçaları tökülüb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) məlumat yayıb.

Məlumata görə, dərhal əraziyə Dövlət Agentliyinin xüsusi təyinatlı texnikaları və canlı qüvvəsi cəlb edilib.

Yolun hərəkət hissəsinə tökülmüş qaya parçalarının kənarlaşdırılması istiqamətində aparılan işlər yaxın dəqiqələrdə başa çatdırılaraq yol boyu hərəkət bərpa olunacaq.

# Ukraynada döyüşlərlə bağlı son vəziyyət açıqlandı

***Rusiya Ukraynanın şərq sərhədi yaxınlığında aviasiya qruplaşmasını genişləndirir, artilleriya bölmələrini gücləndirir, mövcud idarəetmə, kəşfiyyat və tibb sistemlərini optimallaşdırmaqda davam edir.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb.

Bildirilib ki, Rusiya qüvvələri Xarkov, Donetsk və Zaporojye vilayətlərində hərbi və mülki infrastruktur obyektlərinə sistemli şəkildə raket və bomba zərbələri endirməkdə davam edir:

"Düşmən Mərkəzi Hərbi Dairənin bölmələrini Bryansk və Kursk vilayətləri ərazisindən yenidən qruplaşdıracaq və Siver istiqamətində göndərəcək.



Slobodan istiqamətində düşmən potensial hücum istiqamətlərini araşdırır, kəşfiyyat, komanda-nəzarət və səhiyyə sistemini genişləndirir. O, Xarkov şəhərini qismən mühasirəyə almağa və şəhəri artilleriyadan atəşə tutmağa, bölmələri yenidən qruplaşdırmağa və təchizatı artırmağa davam edir.

Donetsk və Tavriya istiqamətlərində qarşı tərəf Slavyansk, Popasna və Kuraxovo ərazilərində döyüşür, Mariupol şəhərində isə hücum əməliyyatları aparırdılar. Rusiya qoşunları heç bir uğura nail olmayıblar. Döyüşlər davam edir.

Mərkəzi Hərbi Dairənin 2-ci Əlahiddə Ümumqoşun Ordusunun ayrı-ayrı hissələrinin hesabına Severodonetsk vilayətində düşmən qruplaşması gücləndirilib.

Donetsk və Luqansk vilayətlərinin işğal olunmuş ərazilərində məcburi səfərbərlik tədbirləri davam edir.

Bundan əlavə, müəyyən edilib ki, Rusiya komandanlığı qarşısına qondarma "Donetsk Xalq Respublikası"da 60-70 min nəfərin səfərbər edilməsi tapşırığını qoyub. Lakin bu rəqəmlərə cəmi 20 faiz əməl olunub.

Düşmən Oleksandrivka ərazisində döyüşlər aparır. Osokorivka ərazisində itirilmiş mövqeləri bərpa etmək üçün hücumları dirçəltmək cəhdləri müşahidə olunub.

Donetsk və Luqansk vilayətləri ərazisində Ukrayna müdafiəçiləri son sutka ərzində Rusiya Silahlı Qüvvələrinin səkkiz hücumunu dəf edib, bir tankı, dörd zirehli texnikasını və altı avtomobili, həmçinin işğalçıların bir artilleriya sistemini məhv ediblər. Ötən gün zenit-raket qoşunları düşmənin iki eskadra mina gəmisini vurub".

# Ukraynada 197 uşaq müharibə nəticəsində ölüb

***"Rusiyanın Ukraynaya müdaxiləsi nəticəsində 197 uşaq ölüb, 351-i müxtəlif dərəcədə yaralanıb".***

"Unikal" xəbər verir ki, məlumatı Ukraynanın Baş Prokurorluğu yayıb.

Bildirilib ki, Rusiyanın Ukraynaya hərbi müdaxiləsinin başlamasından bəri 548 uşaq xəsarət alıb. Uşaqlar daha çox Donetsk, Kiyev, Xarkov, Çerniqov, Nikolayev, Xerson, Luqansk, Zaporojye vilayətlərində, Kiyev, Sumı, Jitomir şəhərlərində xəsarət alıb. Prokurorluqdan qeyd olunub ki, bu rəqəmlər son göstərici deyil, müvəqqəti işğal altında olan və azad edilən Ukrayna ərazilərində uşaqlarla bağlı informasiyaların toplanması davam edir.

Məlumata görə, Rusiya Silahlı Qüvvələrinin bombardmanı nəticəsində Ukraynanın şəhər və kəndlərində 1 014 təhsil müəssisəsinə ziyan dəyib, 91-i tamamilə dağılıb.

# "Finlandiya və İsveç NATO-ya daxil olarsa..." - Medvedev

***Finlandiya və İsveç NATO-ya daxil olarsa, Rusiya quru qoşunlarını və hava hücumundan müdafiəni gücləndirəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev cümə axşamı, aprelin 14 -də öz "Telegram" kanalında yazıb.

"Finlandiya və İsveçin NATO-ya qoşulması halında Rusiya quru qoşunlarını və hava hücumundan müdafiəni gücləndirməli, həmçinin Finlandiya körfəzinə əhəmiyyətli sayda Dəniz Qüvvələri yerləşdirməli olacaq", - Medvedev deyib.

***Ağarza Elçinoğlu***

# Ukraynadan "ruslar və ukraynalılar qardaşdır" sözünə reaksiya

***Ukrayna Xarici İşlər Nazirliyi Fransa prezidenti Emmanuel Makronun "ruslar və ukraynalılar qardaşdır" açıqlamasına reaksiya verib.***

"Unikal" xəbər verir ki, Ukrayna Xarici İşlər Nazirliyinin sözçüsü Oleq Nikolenko verdiyi açıqlamada, "Rusiya və Ukrayna bir sıra tarixi səbəblərə görə bir-birinə yaxındır. Lakin Rusiya və Ukraynanın qardaş olması əfsanəsi 2014-cü ildə Krımda bitib. Rus guya Krımı qorumaq üçün gəldi, amma 8 ildə 14 min ukraynalı öldürdü. Həmçinin Rusiya fevralda raketlər göndərməyə başlayanda bu mif tamamilə bitdi", - deyə bildirib.

Rusiyanın Ukraynaya hücumlarına da toxunan Nikolenko, "Qardaş uşaq öldürməz, insanları güllələməz, qadına təcavüz etməz, qardaş kimi gördüyü millətin evini dağıtmaz. Ən amansız düşmən belə müdafiəsiz insanlara bunu etməzdi. "Qardaş xalq" ifadəsini işlətməyə əsas yoxdur", - deyə o bildirib.

***Gülayə Mecid***

# Abramoviçin 7 milyard dollardan çox aktivi donduruldu

***Böyük Britaniyanın ərazilərindən biri olan Cersi Krallığı rusiyalı milyarder Roman Abramoviçin 7 milyard dollardan çox əmlakını dondurub.***

"Unikal" xəbər verir ki, Krallıqdan açıqlanan bəyanatda Rusiyanın Ukraynaya hücumlarından sonra Böyük Britaniya və Avropa İttifaqının (AB) Rusiyaya qarşı sanksiyalar siyahısına əlavə etdiyi rusiyalı milyarder Roman Abramoviçin aktivlərini fəaliyyətini dayandırıb.

"Aprelin 12-də Kral Məhkəməsi Abramoviçlə əlaqədə şübhəli bilinən və dəyəri 7 milyard ABŞ dollarından çox olduğu təsbit edilən aktivlərin dondurulması ilə bağlı rəsmi qərar çıxarıb", - Cersinin Hüquq Məmurları Departamentinin bəyanatında deyilir.

"Bloomberg Billionaires Index"ə görə sərvəti 13,9 milyard dollar olan Abramoviçin nümayəndələri hələlik mövzu ilə bağlı açıqlama verməyiblər.

***Gülayə Mecid***

# "Ukraynada baş verənlər müharibə deyil, terrordur" - Polşa Prezidenti

***Polşa prezidenti Anjey Duda rus işğalçılarının Ukraynadakı cinayətləri ilə bağlı açıqlama verib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Duda açıqlamasında Ukraynadakı müharibəni "terror" olduğunu bildirib.

Dudanın sözlərinə görə, Rusiyanın işğalı səbəbindən evlərini tərk etmək məcburiyyətində qalan 2,5 milyondan çox ukraynalı artıq Polşaya gəlib.

O, həmçinin Ukrayna liderinin əlini sıxaraq Kiyevə prezident yoldaşları ilə gəldiyini vurğulayıb.

"Biz qəhrəmanlığına, vətənləri uğrunda hər gün canlarını verən bütün ukraynalı əsgərlərə heyranıq", - Polşa Prezidenti deyib.



Duda qeyd edib ki, Kiyev vilayətinin işğaldan azad edilmiş yaşayış məntəqələrinə səfəri zamanı bu müharibənin iki üzünü görüb. Birincisi, müharibənin bütün qaydalarına və prinsiplərinə riayət edərək rus işğalçılarına qarşı vuruşan Ukrayna hərbçiləridir.

"Başa düşmək çətin olan bu müharibənin ikinci üzünü gördük... Bu, bombardman edilən yaşayış məntəqələri, dağıdılmış yaşayış binalarıdır. Hərbi obyektlər deyil, sadə insanların yaşadığı adi evlər... Mən televiziyada bu xarabalıqları gördüm və indi mən onları real həyatda gördüm. Buna inanmaq çətindir. Ona görə də mən Zelenskiyə dedim ki, bu, müharibə deyil, terrordur... bu, qəddarlıq və quldurluqdur...", - deyə o bildirib.

Qeyd edək ki, ötən gün Litva, Latviya, Estoniya, Polşa və Çexiya dövlətlərinin liderləri Kiyevə səfər edib, ölkə rəhbəri Zelenski ilə görüşüblər.

***Aynurə Xudaverdiyeva***

ELAN

**Hərrac:** Bakı şəh,İ.Hidayətzadə küçəsi 156 (20A) 1933 cü məhəllə ünvanında keçirilir tel: 566-70-25, 566-79-67.http: birjaxəbər.az. Açıq formada.Şabran Rayon İcra və Probasiya Şöbəsi (tələbkar "Azərbaycan Beynəlxalq Bankı"ASC, borclu Həkimov Elşən Oqtay oğlu)Nəqliyyat: "VAZ 21074" markalı dövlət qeydiyyat nişanlı avtomobil(2011-ci il biraxılışlı)-1000,00 manat Beh: Satış qiymətinin 5% hərrac təşkilatının depozit hesabına. Behlər hərracın başlanmasına ən geci 3 saat qalanadək qəbul olunur.Hərrac addımı ipoteka predmetlərində :Satış qiymətinin 3%-dək Digər hallarda sərbəst. 01/94D lot üzrə. Hərracın qalıbi alış qiymətini 7 təqvim günü müddətində müddətində İcra və Probasiya Şöbəsinin depozit hesabina ödəməlidir. Qalib olmayan alıcıların behləri 7 təqvim günü müddətində geri qaytarılır .Hərrac 11.05.2022-ci il tarixində saat 11:00-17:00-da keçiriləcək. (növbəlilik əsasında)

# "Yarımfinaldayıq və buna layiqik" - Qvardiola

***"Mançester Siti"nin baş məşqçisi Xosep Qvardiola Çempionlar Liqasının 1/4 final mərhələsində "Atletiko" səddini adlayaraq yarımfinal mərhələsinə yüksəlmələrini şərh edib.***

"Unikal" BBC-yə istinadən xəbər verir ki, mütəxəssis Madrid təmsilçisi ilə cavab matçından (0:0, ilk oyun - 1:0) sonra təşkil olunan mətbuat konfransında deyib:

"Atletiko" çempion komandadır. Onlar enerjili şəkildə oynadılar və ikinci hissədə bizdən daha yaxşı çıxış etdilər. Şanslı idik ki, qol buraxmadıq. İlk hissədə qol imkanlarımız oldu. Yarımfinaldayıq və buna



layiqik. Yarımfinaldakı rəqibimiz "Real" isə çox güclüdür. Çempionlar Liqasındakı bütün komandalar bura gəlib əziyyət çəkirlər. Ona görə də irəliləməyimiz vacibdir. İndi çoxlu zədəli futbolçularımız var və yaxın həftələrdə nə olacağını bilmirəm. Amma bu gün sevinirik, çünki üçüncü dəfə Çempionlar Liqasının yarımfinalındayıq. Lakin "Real"a qarşı "Atletiko" ilə matçın ikinci hissəsindəki kimi oynasaq, şansımız olmayacaq. Çalışmalıyıq ki, Mançesterdəki ilk görüşdəki kimi oynayaq".

Xatırladaq ki, Çempionlar Liqasının 1/4 final mərhələsinin ilk qarşılaşmasında "Mançester Siti" "Atletiko"ya 1:0 hesabı ilə qalib gəlib. Cavab oyunu isə 0:0 hesabı ilə nəticələnib. Beləliklə, "şəhərlilər" yarımfinal mərhələsində "Real"a rəqib olub.

# "Real"ın sabiq futbolçusu avtomobil qəzasında öldü

***Kolumbiya millisinin və "Real"ın sabiq futbolçusu Freddi Rinkon 55 yaşında dünyasını dəyişib.***

Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, keçmiş yarımmüdafiəçi qəza nəticəsində aldığı xəsarətlərdən vəfat edib.

Xatırladaq ki, aprelin 11-də Rinkonun olduğu avtomobil Kalidə (Kolumbiya) avtobusla toqquşub. Freddi reanimasiyaya aparılıb və ancaq onun həyatını xilas etmək mümkün olmayıb.

Qeyd edək ki, Rinkon 1995-1996-cı illərdə "Real"da çıxış edib. Keçmiş yarımmüdafiəçi 1986-2004-cü illər arasında davam edən karyerası ərzində "Napoli" və bir sıra Kolumbiya və Braziliya klublarında da çıxış edib. O, 1990-2001-ci illərdə Kolumbiya millisinə çağırılıb.



# Estoniya millisinin müdafiəçisi: "Neftçi"dən təklif almışam"

***"Azərbaycanda oynamaq maraqlı olar. Rəsmi təklif gələrsə, dəyərləndirərəm".***

Bunu apasport.az saytına açıqlamasında "Voskla"nın müdafiəçisi Conas Tamm deyib.

Hazırda icarə əsasında ölkəsində "Flora"nın formasını geyinən Estoniya millisinin futbolçusu yayda Azərbaycan klublarından birinə keçmək variantına aydınlıq gətirib. O, menecerinin hazırda bir neçə ölkənin klubu ilə danışıq apardığını vurğulayıb: "Düzdür, "Vorskla" ilə müqaviləm davam edir. Ancaq Ukraynadakı durumla əlaqədar gələn mövsümü harada keçirəcəyim bəlli deyil. Transfer məsələsi ilə menecerim məşğul olur. Təfərrüatı ilə bilməsəm də, Azərbaycan variantı istisna deyil. Mövsümün sonunda "Vorskla" rəhbərliyi ilə də söhbətim olacaq. Bu üzdən indidən hansısa klubla anlaşmağım mümkün deyil".

30 yaşlı mərkəz müdafiəçisi 2019-cu ilin yayında "Neftçi"dən təklif aldığını da etiraf edib: "Bəli, iki mövsüm əvvəl "Neftçi"dən təklif almışam. Hətta həmin vaxt formasını geyindiyim "Flora" və keçmiş menecerimlə də rəsmi danışıq olub. Ancaq bildiyim qədərilə maliyyə məsələsində klublar ortaq məxrəcə gələ bilməyiblər. Məndə olan məlumata görə, "Flora"nın tələb etdiyi transfer qiyməti "Neftçi"ni razı salmayıb. Bu üzdən keçidim baş tutmayıb".

Qeyd edək ki, 2011-ci ildən bəri Estoniya yığmasının heyətində 48 oyunda 3 qol vuran Conas Tamm meneceri tərəfindən Azərbaycan klublarına təklif olunub.

# Yetirməsini 500 dəfədən çox zorlayan məşqçi həbs edildi

***ABŞ-ın Ohayo ştatının məhkəməsi Betel-Teyt qəsəbəsindəki orta məktəbdə futbol, basketbol və atletika üzrə məşqçi işləyən Çad Uilhoffu 15 il müddətinə azadlıqdan məhrum edib.***

Apasport.az saytını məlumatına görə, buna səbəb 42 yaşlı mütəxəssisin bir qadınla cinsi əlaqədə olmasıdır.

Uilhoff həyat yoldaşının qohumu olan gənc idmançını məşqə çağırıb və fürsətdən istifadə edərək, onunla intim münasibətdə olub. O, bu əməlini beş il - qurbanın 12 yaşından 16 yaşına qədər davam etdirib.

Münasibət 2002-ci ildən 2007-ci ilə qədər çəkib və bu müddət ərzində məşqçi gənc xanımla 500 dəfədən çox cinsi əlaqədə olub. Amma zərərçəkmiş baş verənləri indi açıqlayıb.



Məhkəmə heyəti Çadı 10 maddə üzrə təqsirli bilib.

Bundan əlavə, Çad Uilhoffun başqa bir qız və bir oğlana qarşı təcavüz ittihamları da olub.

# "...Məni nokaut edərsiniz" - Klopp

***"Çempionlar Liqasının yarımfinalına çıxdığımız üçün məmnun qalmadığımı desəm, məni nokaut edə bilərsiniz. İstədiyimiz kimi olmadı, amma fərqi nədir? Bu gün mövsümün ən yaxşı oyununu keçirsək belə, finala yüksəlmək ehtimalı daha yüksək olmayacaqdı. Əsas odur ki, biz yarımfinaldayıq və mən xoşbəxtəm".***

Qol.az BBC-yə xəbər verir ki, bu sözləri "Liverpul"un baş məşqçisi Yurgen Klopp Çempionlar Liqasının 1/4 finalında "Benfika" ilə cavab oyunundan (3:3) sonra deyib.

İki matçın (3:1, 3:3) nəticəsinə əsasən yarımfinala yüksələn Mersisayd təmsilçisinin çalışdırıcısı bu mərhələdəki rəqibləri "Vilyarreal" haqda da danışıb: "Hazırda "Villarreal"ın oyununu təhlil edə bilsəm, çox qəribə olardı. Mən onların nəticələrini gördüm, yaxşı oyun nümayiş etdirirlər. "Yuventus", "Bavariya"nı məğlub ediblərsə, deməli, yarımfinala yüksəlməyə layiqdirlər.

"Vilyarreal"ın baş məşqçisi Unai Emeri kubok kralıdır, etdikləri heyrətamizdir. Amma hazırlaşmaq üçün mənə vaxt verin".

# Konfrans Liqasında yarımfinalçılar müəyyənləşir

***Konfrans Liqasında 1/4 final mərhələsinə yekun vurulacaq.***

Bütün cavab oyunları eyni gündə keçiriləcək və bütün yarımfinalçıların adına aydınlıq gələcək.

"Lester" ilk görüşdə 0:0 hesablı heç-heçə etdiyi PSV-nin qonağı olacaq. "Feyenoord" "Slaviya" ilə səfərdə qarşılaşacaq (İlk oyun - 3:3). Pley-off mərhələsində "Qarabağ"ı mübarizədən kənarlaşdıran "Marsel" PAOK-la Yunanıstanda üz-üzə gələcək. İlk görüş "Marsel"in 2:1 hesablı qələbəsi ilə başa çatıb. "Roma" evdə "Budyo Qlimt"lə qarşılaşacaq (İlk matç - 1:2).

UEFA Konfrans Liqası, 1/4 final

Cavab oyunları

**14 aprel**

20:45. PSV (Niderland) - "Lester" (İngiltərə)

İlk oyun - 0:0

23:00. "Slaviya" (Praqa, Çexiya) - "Feyenoord" (Niderland)

İlk oyun - 3:3

23:00. PAOK (Yunanıstan) - "Marsel" (Fransa)

İlk oyun - 1:2

23:00. "Roma" (İtaliya) - "Budyo Qlimt" (Norveç)

İlk oyun - 1:2.

# Nəbiyevin komandası uduzdu

***Çexiya 2-ci divizionunda 23-cü turun oyunları keçirilir.***

Qol.az xəbər verir ki, azərbaycanlı futbolçu Fərid Nəbiyevin formasını geyindiyi "Viktoriya" (Jijkov) səfərdə "Dukla Praqa" ilə qarşılaşıb və 1:3 hesabı ilə uduzub.

Fərid Nəbiyev bu matçda iştirak edib. O, 75-ci dəqiqədə meydana daxil olub.

"Viktoriya" hazırda 11 xalla 16 komanda arasında turnir cədvəlində sonuncu-16-cı pillədə qərarlaşıb.

# Premyer Liqamızda 23-cü turun hakimləri

***Azərbaycan Premyer Liqasında 23-cü turun oyunları üçün hakim təyinatları müəyyənləşib.***

"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, matçlar aşağıda adları qeyd olunan hakimlərə həvalə olunub:

15 aprel (cümə)

17:00. "Qəbələ" - "Sumqayıt"

Hakimlər: Rauf Cabarov, Namiq Hüseynov, Cavanşir Yusifov, Rövşən Rəcəbov

Qəbələ şəhər stadionu

19:30. "Qarabağ" - "Şamaxı"

Hakimlər: Rauf Allahverdiyev, Pərvin Talıbov, Kamran Bayramov, Rəvan Həmzəzadə

"Azersun Arena"

16 aprel (şənbə)

18:15. "Zirə" - "Səbail"

Hakimlər: Əliyar Ağayev, Zeynal Zeynalov, Akif Əmirəli, Fərid Hacıyev

Zirə İdman Kompleksinin stadionu

20:30. "Neftçi" - "Sabah"

Hakimlər: Kamal Umudlu, Rəhman İmami, Müslüm Əliyev, Tural Qurbanov

"Bakcell Arena"